39_27 IYUl-QARA.qxd 11/7/2024 10:28 PM Page 1


# UNİKAL

№41 (2223) 8 noyabr 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az




## Səfər Mehdiyevin adı növbəti böyük qalmaqalda

*Dövlət Gömrük Komitəsinin (DGK) keçmiş sədri Səfər Mehdiyevin adı növbəti qalmaqalda hallanır. Belə ki, onun sədr olduğu dönəmdə bir qrup gömrük işçisinin pensiya hüququnun pozulduğu iddia edilir. Həmin iddia artıq ictimailəşib və bu mövzu ətrafında bir-birindən ilginc xəbərlər yayılmaqdadır. Belə ki, pensiya hüququ pozulan gömrük işçilərinin artıq ölkə rəhbərliyinə müraciət etdikləri bildirilir. "Dövlət qulluğunun xüsusi kateqoriyasına aid olduğumuzdan bizim xüsusi rütbəli şəxs kimi əmək pensiya hüququmuz 20 təqvim ili tamamında yaranmışdır. Lakin biz həmin hüququmuzdan istifadə etməyərək gömrük orqanlarında öz fəaliyyətimizi davam etdirmişik. Sonra Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev 2019-cu ilin iyulunda imzaladığı əmrlə bizə heç bir xəbərdarlıq edilmədən gömrük orqanlarında fəaliyyətimizə xitam verilmiş və pensiyaya çıxarılmışıq. Dövlət Gömrük Komitəsi pensiya haqqında məlumat vərəqəsini Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Rütbəli Şəxslərlə Təyinat...*

Səh.8

# Azərbaycan-ABŞ münasibətlərində yeni dönəm:
## Trampın növbəti prezidentliyindən gözləntilər



Səh.9

## "Azərbaycanda həkim çatışmazlığı var"



*Tibbi elmləri doktoru, professor Adil Qeybulla "Unikal"a müsahibə verib. O, sosial şəbəkədə 50-yə yaxın plastik cərrahın saxta fəaliyyət göstərməsi ilə bağlı yazılanlardan, Azərbaycandakı həkim çatışmazlığından və pensiya yaşına çatan həkimlərlə müqavilənin uzadılmamasının səbəblərindən danışıb.*

Səh.4

## Elə bir sülh olmalıdır ki, 3-cü, 4-cü Qarabağ savaşı olmasın..



*"Avropanın mərkəzində, məsələn, Lüksemburq istənilən hərbi savaşda məğlub olub ayaqda qala bilər, çünki, Avropada şərtlər başqadır, lakin təkcə qaliblərə yaşamaq haqqı verən Qafqazlarda müharibəni uduzub müstəqil dövlət qurmaq mümkün deyil. Prezident siyasi mövcudluğun...*

Səh.8

## Azərbaycanın qazandığı qələbə ilə regiona sülh gəlib



*"Azərbaycan qazandığı möhtəşəm qələbə ilə dünyaya ədalətin bərpa olunduğunu nümayiş etdirdi". "Unikal" xəbər verir ki, bu barədə Milli Məclisin bu gün keçirilən iclasında spikerin birinci müavini Əli Əhmədov bildirib. O qeyd edib ki, bu gün Azərbaycan sülh gündəliyini dünyaya bəyan edir...*

Səh.6

39_27 IYUl-QARA.qxd 11/7/2024 10:29 PM Page 2



# "Heç nəyi ərimdən gizlətmirəm, məşhur aparıcı da sevgi mesajı yazıb" - Qumral



**"Mən heç nəyi yoldaşımdan gizlətmirəm, iki balamın canı".**

"Unikal" parol.az-a istinadən xəbər verir ki, müğənni Təranənin qızı Qumral MTV telekanalında qonaq olduğu verilişdə deyib.

Qumral ona yazılan çoxsaylı təklif və sevgi mesajlarını da həyat yoldaşından gizlətmədiyini açıq etiraf edib. Gənc ifaçı hətta ona "padxod" edənlər arasında adını açıqlamadığı məşhur aparıcının da olduğuna işarə edib: "Yoldaşıma deyirəm, buna bax e, özünü ağıllı hesab edir. Dünən filankəslə efirə çıxmışam və yaxud hər hansı aparıcı məni çağırıb, elə bilir ki, mən verlişə görə şirinlik edəcəm. Xoşlamıram, hər şeyin öz yeri, hər şeyin öz çərçivəsi, həddi var. Mənə heç kim "ürəyim" deyə bilməz. Çünki ürək metro deyil ki, hər kəsə deyilsin. Ürək bir dənə olur, o da bir nəfərə məxsusdur. Mən elə insanları qeyri-səmimi hesab edirəm".

# "Zinət əşyalarımı götürüb qaytarmırlar" - Elza Seyidcahan

*Əməkdar artist Elza Seyidcahan küsülü olduğu "Bu şəhərdə" komandasının konsertinə yollanıb.*



"Günə bax" proqramına müsahibə verən sənətçi aktyorlar, Əməkdar artist Rafael İsgəndərov və Coşqun Rəhimova zinət əşyalarını verdiyini deyib:

"Evimdə olub, çörəyimi kəsiblər. Paltarımı geyinib, zinət əşyalarımı taxıb qaytarmayıblar. Bir neçə dəfə dedim ki, qaytarmadılar. Daha dedim, üzümün abrı gedir, qalsın. Məni mərkəz nöqtə ediblər. Dostlarım dedi ki, getmə, əndazəni aşıblar. Dedim, aşsalar, mən də aşacağam. Görüm necə olacaq. Yuxuda da, yatanda da, səhnələrində də Elza sayaqlayırlar".

# "Toylarda geyinənlərə yox, soyunanlara çox pul verilir" - Nazilə Səfərli



*"Artıq toylarımızda gözəl geyinənlər yox, gözəl soyunanlara çox pul verilir".*

"Unikal" bildirir ki, bu sözləri şair Nazilə Səfərli sosial şəbəkə hesabında paylaşımında yazıb.

Toylarda açıq-saçıq geyinənləri müdafiə edən məşhur bunları yazıb: "Toy sahibləri öz istəyi ilə dəvət etdiyi ulduzunun geyimindən xəbərdardır və soyunmayanı ailəsinin şənliyinə buraxmır. Odur ki, soyunanlara pis baxmayın. "Gözəl soyunmaq" toy üçün nəzərdə tutulmuş uniformadır. Yaraşan da soyunur, yaraşmayan da... Uniformada axı neyləsin yazıqlar?"



# "TikTok nədir?" - Niyaməddin Musayev

*Xalq artisti Niyaməddin Musayev açıqlaması ilə diqqət çəkib.*

"Elgizlə izlə" proqramında müğənniyə TikTok sosial şəbəkəsi haqda sual verilib. N.Musayev isə bu şəbəkədən xəbəbsiz olduğunu deyib.

"Niyaməddin Musayev TikTok nədir bilmir. Soruşur ki, nədir? Bir dəfə TikTok-a girsə nələr olar" deyə, aparıcı Elgiz Əkbər deyib. "Vaxt olmayıb" deyə, ifaçı əlavə edib.

# "Ər çörəyi yeyən qadınlar boşandıqdan sonra nə edəcəklər?" - Səmra

*"Ər çörək mənbəyidir. Kişilər çörək mənbəyidir. Nəyi pisdir? Yeyin, ey xanımlar".*



"Unikal" shownews-a istinadən xəbər verir ki, "Gün bu gün verilişində vəkilin səsləndirdiyi bu fikir model Səmra Hüseynovanın xoşuna gəlməyib.

O, qadın özü pul qazanmağı bacarmalıdır ki, boşandıqdan sonra çörək yemək üçün başqa yollar axtarmasın deyə, fikir bildirib.

# Üzeyir bu məşhurun toyuna 8 min manat pul yazdırıb



*Azad Azərbaycan (ATV) televiziyanın "Rəngarəng" verilişində müğənni Şöhrətin toyuna ən çox pul yazdıran şəxsin kimliyi bəlli olub.*

"Unikal" manset.az-a istinadən xəbər verir ki, həmin şəxsin məşhur ifaçı Üzeyir Mehdizadə olduğu açıqlanıb. O, toya beş min dollar (8500 manat) pul yazdırıb.

Şöhrət Üzeyir Mehdizadənin toyda onun qədər əziyyət çəkdiyini bildirib.

# Türkanın toyda halı pisləşdi

*Müğənni Türkan Vəlizadə iştirak etdiyi el məclislərinin birində çətin anlar yaşayıb.*



Onun köməyinə duet ortağı meyxanaçı Pərviz Bülbülə çatıb.O, Vəlizadənin təzyiqini ölçməsinə yardım edib. Bu görüntü isə sənətçilərin ətrafında olan insanlar tərəfindən qeydə alınıb.



## Elə bir sülh olmalıdır ki, 3-cü, 4-cü Qarabağ savaşı olmasın...

***"Avropanın mərkəzində, məsələn, Lüksemburq istənilən hərbi savaşda məğlub olub ayaqda qala bilər, çünki, Avropada şərtlər başqadır, lakin təkcə qaliblərə yaşamaq haqqı verən Qafqazlarda müharibəni uduzub müstəqil dövlət qurmaq mümkün deyil. Prezident siyasi mövcudluğun əsas təminatını-qalib ordunu dünyaya göstərdi.***

Düşmənin əliylə beyinlərə qəsdən yeridilən, "bu xalqdan əsgər çıxmaz" dəyənlərin qarşısına sinəsində 70 min orden və medalı daşıyan Qüvvələri qoydu. İlham Əliyevin Ali Baş Komandanlığı konstitusion normadan çox, müharibədə qazanılan tituldur. Bütün əvvəlki formasiya və quruluşlarda azadlıq, qalibiyyət istəyən liderlərin idealları çin olub".

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasda deputat, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib.

"Son 2 əsrdə ilk dəfə ermənilərə sərhəddi böyük dövlətlər yox, məhz Azərbaycan göstərir. Əgər birinci Qarabağ savaşı SSRİ-nin dağılmasının siqnalı olmuşdusa, Vətən müharibəsi qlobal layları tərpədərək, Azərbaycana taleyini başqalarının yox, ilk dəfə bizim dövlətə dünyanın yenidən bölüşdürülməsində iştirak fürsəti verdi. İndi biz təkcə coğrafi deyil, həm də siyasi olaraq böyümüşük, beynəlxalq nüfuz və çəkimiz artıb. Ona görə də yeni dünya düzənində yüksək statusla iştirak edə bilirik. Hərbi meydanda olduğu kimi, diplomatik savaşda da elə bir sülh müqaviləsi qazanmalıyıq ki, dövlətimiz bir daha 3-cü, 4-cü Qarabağ savaşına çəkilməsin. Torpaq yarımçıq olanda, insan da natamam olur. Təkcə ərazi və suverenlik yox, 20 faizlik sindromdan xilas olan bütöv vətəndaşa çevrilmişik",- deyə o bildirib.

## Komitə sədrləri "Xarıbülbül zirvəsi"ndə

***8 noyabr - Zəfər Günü münasibətilə ölkəmizdə bir sıra təntənəli tədbirlər keçirilir. Azərbaycan Respublikasının Milli Məclisi də öz növbəsində şəhidlərimizin əziz xatirəsinə həsr olunmuş tədbirlər təşkil edir.***

"Unikal" xəbər verir ki, qarşıdan gələn 8 noyabr - Zəfər Günü ərəfəsində Milli Məclisin sədri Sahibə Qafarovanın təşəbbüsü ilə parlamentin komitə sədrləri Şahin İsmayılov, Əli Hüseynli, Parlament Aparatının rəhbəri Fərid Hacıyev, Aparat rəhbərinin müavini Rüstəm Mahmudov və Aparatın əməkdaşı Ruslan Hacıyevdən ibarət bir qrup "Xarıbülbül zirvəsi"nə yürüş edib.

Yürüş noyabrın 6-da Quba rayonunun Xınalıq kəndindən başlayıb və 2783 metr hündürlükdə yerləşən "Xarıbülbül zirvəsi"nə qalxmaqla yekunlaşıb. Zirvədə Azərbaycanın ərazi bütövlüyü uğrunda 44 günlük Vətən müharibəsində canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinə hörmət və ehtiramlarını ifadə edən yürüş iştirakçıları soyuq hava şəraitinə və çətin relyefə baxmayaraq, yürüş zamanı qarşıya qoyulmuş məqsədə nail olublar.

# Səfər Mehdiyevin adı növbəti böyük qalmaqalda

## Sabiq "gömrük şefi"nin özü 10 min manat pensiya alır, təqaüdə çıxan işçiləri isə... - Şok təfərrüatlar!

***Dövlət Gömrük Komitəsinin (DGK) keçmiş sədri Səfər Mehdiyevin adı növbəti qalmaqalda hallanır. Belə ki, onun sədr olduğu dönəmdə bir qrup gömrük işçisinin pensiya hüququnun pozulduğu iddia edilir. Həmin iddia artıq ictimailəşib və bu mövzu ətrafında bir-birindən ilginc xəbərlər yayılmaqdadır.***

Belə ki, pensiya hüququ pozulan gömrük işçilərinin artıq ölkə rəhbərliyinə müraciət etdikləri bildirilir. "Dövlət qulluğunun xüsusi kateqoriyasına aid olduğumuzdan bizim xüsusi rütbəli şəxs kimi əmək pensiya hüququmuz 20 təqvim ili tamamında yaranmışdır. Lakin biz həmin hüququmuzdan istifadə etməyərək gömrük orqanlarında öz fəaliyyətimizi davam etdirmişik. Sonra Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev 2019-cu ilin iyulunda imzaladığı əmrlə bizə heç bir xəbərdarlıq



edilmədən gömrük orqanlarında fəaliyyətimizə xitam verilmiş və pensiyaya çıxarılmışıq. Dövlət Gömrük Komitəsi pensiya haqqında məlumat vərəqəsini Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Rütbəli Şəxslərlə Təyinat İdarəsinə göndərib. Həmin məlumat vərəqəsində bizim işlədiyimiz dövrlərdə aldığımız digər əlavələr öz əksini tapmayıb. Bizə çox az pensiya hesablanıb" - deyə müraciət müəllifləri qeyd edib.

"Gömrük Komitəsi bunu onunla əsaslandırmışdır ki, 30 noyabr 2018-ci il tarixli 1362-V Q D-nömrəli Azərbaycan Respublikası Qanunu ilə 1.0.5.-ci maddəyə "digər əlavələrdən" sözlərindən sonra (büdcədənkənar vasitələr hesabına hesablanan əlavələr və digər ödənişlər istisna olmaqla) sözləri əlavə edilmişdir və həmin dəyişiklik 01 yanvar 2019-cu il tarixindən qüvvəyə minmişdir.

Qeyd edək ki, 2019-cu ilin yanvar ayından əvvəl pensiya hüququna çatmış gömrük əməkdaşları kütləvi şəkildə pensiyaya çıxdılar. Lakin içərisində biz də daxil olmaqla az sayda gömrük əməkdaşları iş fəaliyyətlərini davam etdirdilər. Amma Gömrük Komitəsinin rəhbərliyi bu işçilərin fədakarlığını nəzərə almayaraq 6 aydan sonra onların (biz də daxil olmaqla) müəyyən hissəsini heç bir xəbərdarlıq etmədən pensiyaya çıxartdılar. Hal-hazırda bizdən 6 ay əvvəl pensiyaya çıxmış eyni rütbəli, eyni iş stajına malik olan həmkarlarımızdan 2,5-3 dəfə az pensiya alırıq.

Bu cür pensiya hesablamalar nə hüquqa, nə ədalətə, nə də Sizin insanların rifahının, həyat tərzinin yaxşılaşdırılması üçün apardığınız siyasətə uyğun gəlmir. Bizim işlədiyimiz son dövrlərdə aldığımız maaş (baza maaşı 180-270 azn digər əlavələr 1500-2000 azn) pensiya hesablanarkən yalnız baza maaşı nəzərə alınmışdır. Digər əlavələr nəzərə alınmamışdır. Ancaq biz digər əlavələrin verilən günündən, yeni 2011-ci il tarixindən sosial sığortaya pul ödəmişik" - şikayətçilər vurğulayıblar.

Mediada yayılan məlumatlardan belə aydın olur ki, müraciət müəlliflərindən bəziləri problemi hüquqi müstəvidə həll etməyə çalışır.

Xatırladaq ki, daha əvvəl Dövlət Gömrük Komitəsinin (DGK) keçmiş əməkdaşı Nəzakət Qazıbəyovanın sözügedən qurumu məhkəməyə verdiyinə dair məlumat yayılmışdı. Həmin məlumata görə, onun iddiasına Bakı İnzibati Məhkəməsində baxılacaq.

Yerli KİV xəbər verib ki, Həmid Ağalarov iş üzrə hakim təyin edilib. Nəzakət Qazıbəyovun iddiası inzibati orqanların hərəkətsizliyi ilə əlaqədardır.

İşin detallarına gəlincə, əvvəl də vurğuladığımız kimi, mübahisə pensiya təminatı ilə bağlıdır. Nəzakət Qazıbəyova DGK-nın keçmiş sədri Səfər Mehdiyevin dövründə təqaüdə göndərilib. Lakin o, pensiyasının düzgün hesablanmadığını iddia edir.

Nəzakət Qazıbəyova və onunla birlikdə təqaüdə göndərilən digər əməkdaşların ölkə rəhbərliyinə müraciətlərindən belə aydınlaşır ki, onlar dövlət qulluğunun xüsusi kateqoriyasına aid olduqlarından 20 təqvim ilinin tamamında yaranan pensiya hüquqlarından yararlanmayaraq gömrük orqanlarında fəaliyyətlərini davam etdiriblər. Lakin 2019-cu ildə həmin vaxt DGK-nın sədri olan Səfər Mehdiyev onlara heç bir xəbərdarlıq etmədən gömrük orqanlarında fəaliyyətlərinə xitam verərək təqaüdə göndərib.

Müraciət müəllifləri bildirib ki, DGK tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Rütbəli Şəxslərlə Təyinat İdarəsinə göndərilən pensiya haqqında məlumat vərəqəsində işlədikləri dövrlərdə aldıqları digər əlavələr əksini tapmayıb və onlara az pensiya hesablanıb.

Məlumatlara görə, ilk olaraq məhz Nəzakət Qazıbəyova bu məsələni məhkəmədə mübahisələndirmək qərarına gəlib.

Qazıbəyovanın ardınca isə DGK-nın pensiya hüquqi pozulan daha üç keçmiş işçisi - Musa Abbasov, Əli Hacıyev və Yusif Bağırov məhkəməyə müraciət etdiyi aydınlaşıb. Onların da iddiasına Bakı İnzibati Məhkəməsində baxılacağı bildirilir.

"Unikal"ın araşdırmasına görə, 2022-ci ilin iyulunda rəhbərlik etdiyi qurumla bağlı antikorrupsiya əməliyyatları çərçivəsində vəzifəsindən azad edilən sabiq "gömrük şefi" Səfər Mehdiyev hazırda 10 min manatdan yuxarı, təxminən 11 min manata yaxın pensiya alır. Onun pensiyasının yüksək məbləğdə hesablanması xidmət müddətinin keçməsi, uzun illər DGK-da çalışıb, yüksək rütbə (gömrük general-polkovniki) daşıması ilə bağlıdır.

İndi isə belə aydın olur ki, DGK sədri postunu tutduğu dövrdə bu qurumun adının rüşvət və korrupsiya ittihamlarına qarışmasının səbəbkarı olaraq göstərilən, elə həmin səbəbdən də postunu itirdiyi bildirilən Mehdiyev çox sayda gömrük əməkdaşının pensiya hüquqlarının pozulmasına da rəvac verib. Hər halda bunu Səfər müəllimin keçmiş işçiləri deyir, onu günahlandırır, baxmayaraq ki, adı çəkilən komitənin sabiq sədri artıq məhkəmə müstəvisinə keçən həmin ittihamlar qarşısında susqunluq nümayiş etdirir. Susmaq isə razılıq əlamətidir. Hər halda, müdrik atalarımız belə deyiblər...

***Toğrul Əliyev***

# Azərbaycan-ABŞ münasibətlərində yeni dönəm: Trampın növbəti prezidentliyindən gözləntilər

***Donald Tramp ABŞ-nin 45-ci prezidenti olaraq həm daxili siyasətdə, həm də beynəlxalq arenada bir çox mübahisələr və dəyişikliklərlə yadda qalıb. Onun idarəçiliyi həm də çox sayda siyasi təhlil və şərhə səbəb olub. Əksəriyyət Trampın gələcəkdəki potensial prezidentliyinin beynəlxalq münaqişələrə necə təsir edəcəyini müzakirə edir. Xüsusilə, İsrail-Fələstin münaqişəsi və Rusiya-Ukrayna müharibəsi kimi qlobal böhranların həlli məsələsi Trampın növbəti prezidentlik dövrü ilə bağlı ən çox müzakirə olunan məsələlərdən biridir.***

Bizim üçün isə Trampın yeni prezidentliyi dövründə Azərbaycan-ABŞ münasibətləri, ABŞ-ın Qarabağ məsələsi ilə bağlı sülh müqaviləsinin imzalanması prosesinə münasibəti və digər məsələlər maraqlıdır.

Qeyd edək ki, prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının yeni seçilmiş prezidenti Donald Trampı təbrik edib. Dövlət başçısı vurğulayıb ki, Azərbaycan hər zaman ABŞ-Azərbaycan əlaqələrinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir. Ölkə rəhbəri qeyd edib ki, Azərbaycan ABŞ ilə ikitərəfli tərəfdaşlığı bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi-ticari, təhlükəsizlik, enerji, yaşıl və rəqəmsal keçid və digər istiqamətlər üzrə daha da genişləndirmək və dərinləşdirmək əzmindədir.

Məsələ ilə bağlı "Unikal"a açıqlama verən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov bildirib ki, bunu indidən demək çətindir: "Trampın ABŞ hakimiyyətinə gəlmək üçün tezisləri ondan ibarət olub ki, beynəlxalq proseslərə ikinci dərəcəli məsələ kimi baxılacaq. İlk növbədə daxildə olan problemlərə diqqət yetiriləcək. Xarici siyasətə aid ümumi mövqeləri isə açıqlayıb. Bu da onu göstərir ki, münaqişədə olan ölkələr sülhün əldə olunmasında özləri səy göstərməlidirlər. ABŞ hər məsələdə kiminsə yerinə səy göstərməməli və qərar verməməlidir. Bu isə onu deməyə əsas verir ki, ABŞ hansısa etnik qrupların yox, öz dövlət maraqlarına uyğun siyasət həyata keçirəcək. Bu baxımdan, Azərbaycan həmişə olduğu kimi, ABŞ üçün vacib tərəfdaşdır. Trampın prezident kimi vəzifələrinin icrasına başlamasından sonra erməni lobbisinin təsiri altında siyasət yürüdəcəyinə inanmıram", - deyə sabiq nazir qeyd edib.

T.Zülfüqarov vurğulayıb ki, ABŞ üçün hansısa qərarın qəbul olunmasında ən əsas məqam geopolitik maraqlar olacaq: "Beynəlxalq qanunlara uyğun modellər təşkil olunacaq. Bu da bizim mövqeyimizə yaxın olan bir mövqedir. Hər halda, hələlik belə ümidlər üçün yer var. Biz gərək xarici siyasətin fəallaşmasını hələlik gözləməyək, çünki 2025-ci ilin 20 yanvar tarixində Trampın inauqurasiya mərasimi keçiriləcək. Bu müddət isə keçid dövrü adlanır. Keçid dövrünə uyğun olaraq, həmin zaman xarici siyasətdə hansısa addımlar atılmır. Bundan sonra, hökumətin təyinatları olacaq. Bu proses də bir müddət davam edəcək və vaxt aparacaq. Beləliklə, 2025-ci ilin ortasına və ya sonuna qədər bizim istiqamətdə hansısa fəal addımların atılmasını gözləməməliyik", - deyə o əlavə edib.

Amerika Birləşmiş Ştatlarının yeni seçilmiş prezidenti Donald Trampı ilk təbrik edənlərdən birinin məhz Azərbaycan lideri olacağı öncədən bəlli idi". Bunu "Unikal"a açıqlamasında deputat Sahib Alıyev deyib. Onun sözlərinə görə, İlham Əliyevin Donald Trampın birinci dəfə dövlət başçısı olduğu dönəmdə iki ölkə arasında əməkdaşlığın möhkəmləndirildiyini məmnunluqla ifadə etməsindən də bu aydındır: "Xatırladım ki, dövlət başçısı İlham Əliyev yayda Şuşada verdiyi açıqlamada da Trampı dəstəklədiyini gizlətməmişdi. Bu il iyulun 14-də "X" sosial media hesabında paylaşdığı statusda isə prezidentimiz Donald Trampa qarşı sui-qəsdi "siyasi zorakılıq" adlandıraraq qətiyyətlə pisləmişdi. Yeri gəlmişkən, Azərbaycanın dövlət başçısının həmin statusda Trampdan keçmiş prezident yox, ABŞ Prezidenti kimi bəhs etməsi Qərbdəki bəzi çevrələri xeyli qıcıqlandırmışdı. Belə görünür ki, İlham Əliyevin bu ilin yayında ABŞ-nin yeni prezidenti haqqında dedikləri və yazdıqları həm də proqnoz xarakterli imiş. Ona görə də ümid edirəm ki, dövlət başçımızın Trampa təbrik məktubunda vurğulandığı kimi onun ikinci prezidentliyi dönəmində ölkələrimiz arasında münasibətlər möhkəmlənəcək, yeni əməkdaşlıq sahələri müəyyən olunacaq. Milli maraqlar, o cümlədən milli təhlükəsizlik maraqları əsasında tərəfdaşlığımızın irəli aparılması yolunda birgə səylər göstəriləcək. Əminəm ki, qarşı tərəf prezidentin "Azərbaycan bundan sonra da Cənubi Qafqazda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində fəaliyyətini davam etdirəcəkdir" deyəndə nəyi nəzərdə tutduğunu da yaxşı anlayır".

Sosial Tədqiqatlar Mərkəzinin nümayəndəsi, siyasi şərhçi Aqşin Kərimov hesab edir ki, Tramp müharibələrə son qoyacağını bəyan etsə də, onun administrasiyası dövründə Yaxın Şərqdə, gərginləşdirici addımlar atacağı proqnozlaşdırıla bilər. Onun sözlərinə görə, ABŞ və Rusiya postsovet məkanında "Moldova Qərbin, Gürcüstan Rusiyanın" bölgüsü ilə yeni rəqabət səhnəsi hazırlayır. Lakin Trampın Ağ Evə rəhbərliyi ABŞ-nin Cənubi Qafqaz siyasətində Azərbaycanın əlini bərkidəcək məqamlar barədə təəssüratları qüvvətləndirir: "Proqnozlaşdıra bilərik ki, ABŞ-nin Azərbaycana qarşı xarici siyasətdə təzyiq kampaniyasının zəifləyəcəyi, Bakıya qarşı informasiya təbliğatları üçün əlavə xərclər çəkilməyəcəyini proqnozlaşdırmaq mümkündür. Senatda və Nümayəndələr Palatasında Respublikaçıların qələbəsi ABŞ-nin xarici siyasət doktrinasında "Azərbaycan epizodunu" gücləndirmək potensialına malikdir. Azərbaycan-Ermənistan münasibətlərinə yanaşmanı Trampın "müharibələri bitirmək" arzusunu ifadə etməsində tapmaq olar. Yəni, Azərbaycan üçün Ermənistanı sülhə gətirmək üçün "Vaşinqton ideyalı" şans da yaranır. Trampın beynəlxalq və regional siyasət üzrə ştrixlərinin Azərbaycan üçün risk yardacaq məqamları da diqqətə alınmalıdır. Bu mənada ki, əgər Tramp İrana qarşı dalğaları yuxarı səviyyəyə qaldırsa, bu, regionda Bakı-Tehran gərginliyinə rəvac verə bilər. Həmçinin, Tramp Çini hədəf seçsə, Pekinin tərəfdaşlarına da təsirlər göstərməyə çalışacaq və bu, Çinlə Azərbaycanın münasibətlərində ABŞ-dən qaynaqlanan çətinliklər üzə çıxara bilər. Bununla belə, Azərbaycan Çinlə əməkdaşlığın ABŞ-yə qarşı ayırıcı xətt kimi olduğunu göstərən geosiyasi məramı sətiraltı göstərə bilər. Regionda İranın zəif bənd olma ehtimalları, Vaşinqtonla danışıqlarda maraqlı olması Azərbaycan qarşısında Tehranın geosiyasi mövqelərini zəiflədir".



***Murad İbrahimli***

# Bakı Media Mərkəzi COP29-un rəsmi yayım şirkəti oldu

***Bu il noyabrın 11-dən 22-dək Bakıda keçiriləcək COP29 konfransının dünya ictimaiyyətinə təqdim olunması üçün tədbir məkanı olan Bakı Stadionundan yüksək keyfiyyətli yayımı təmin etmək məqsədilə Bakı Media Mərkəzi COP29 konfransının rəsmi yayım şirkəti təyin olunub.***

COP29 Azərbaycan Əməliyyat Şirkətinin mətbuat xidmətinin məlumatına görə, Azərbaycanın peşəkar audiovizual istehsalçısı olan Bakı Media Mərkəzi dünya izləyicilərinə COP29 çərçivəsində yer alacaq qlobal iqlim fəaliyyətini canlı rejimdə onlayn izləmək imkanını yaradacaq.

Konfransın hər bir anını qeydə almaq məqsədilə tədbir məkanının müxtəlif zalları, auditoriyaları, görüş otaqları və digər müxtəlif sahələrində yerləşdiriləcək müasir yayım avadanlıqları sayəsində şirkət konfrans çərçivəsində keçirilən bütün mühüm tədbirlərin və müzakirələrin fasiləsiz canlı yayımını təmin edəcək.

İrimiqyaslı tədbirlərin yayımında geniş təcrübəyə malik olan Bakı Media Mərkəzi tərəfindən COP29 üçün müasir texnoloji imkanlarla yanaşı peşəkar işçi heyəti də cəlb ediləcək. Belə ki, yayımın reallaşdırılması məqsədilə şirkət tərəfindən 300-dən çox yayım mütəxəssisi cəlb olunacaq. Bakı Media Mərkəzinin COP29-la əməkdaşlığı yalnız yayım ilə məhdudlaşmayaraq, həmçinin foto və videomateriallarının təmin edilməsini də nəzərdə tutur.

Rəsmi yayım şirkəti olaraq Bakı Media Mərkəzi ilə əməkdaşlıq mühüm qlobal əhəmiyyətli tədbir çərçivəsində istehsal edilən multimedia materiallarının qorunmasına dair zəmanəti də əhatə edir.

Bu tərəfdaşlıq COP29-un beynəlxalq səviyyədə yüksək standartlara uyğun media təqdimatını təmin etməklə yanaşı, konfransın ehtiva etdiyi əsas mesajları qlobal auditoriyaya effektiv və geniş miqyasda çatdırılmasına xidmət edəcək. Belə ki, bu vacib vəzifəni icra edəcək Bakı Media Mərkəzi yüksək keyfiyyətli yayım vasitəsilə tarixi məqamların əlçatan olmasını təmin etmək istiqamətində daima səy göstərdiyini bir daha nümayiş etdirir. Tərəfdaşlıq çərçivəsində şirkətin zəngin təcrübəsi, müasir yanaşması və peşəkarlığı nəticəsində COP29 konfransının dünyanın istənilən nöqtəsindən istənilən şəxs tərəfindən fasiləsiz izlənməsinə şərait yaradılacaq.

39_27 IYUl-QARA.qxd 11/7/2024 10:30 PM Page 5



# İlham Əliyev Mərkəzi Parkın üçüncü hissəsinin açılışında



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Bakıda Mərkəzi Parkın üçüncü hissəsinin açılışında iştirak edib.***

"Unikal" xəbər verir ki, dövlət başçısına paytaxtın Yasamal rayonu ərazisində yerləşən parkda görülən işlər barədə məlumat verilib.

Qeyd edək ki, Mərkəzi Parkın birinci hissəsi 2019-cu il mayın 22-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə istifadəyə verilib. Parkın ikinci hissəsinin açılışı isə 2022-ci il dekabrın 30-da olub. Prezident İlham Əliyev açılışda iştirak edib.

Bildirilib ki, növbəti mərhələdə isə Mərkəzi Parkın üçüncü hissəsinin 9 hektar ərazisi tam abadlaşdırılıb, burada ən müasir tələblərə uyğun yeni istirahət zonası yaradılıb. Parkın yeni hissəsinin ümumi ərazisi illərdir yığılıb qalmış tullantılardan təmizlənib, torpaq səthi dəyişdirilib və müvafiq aqrotexniki tədbirlər görülüb.

Ümumilikdə parkın bu hissəsinin 7,4 hektarında 19 növdə 3 min 500 ağac, 25 mindən çox gül və kol bitkiləri əkilib. Burada yaşıllaşdırmanın daha səmərəli olması üçün əraziyə 60 min kubmetrə yaxın münbüt torpaq tökülüb, müasir suvarma sistemi qurulub.

Mərkəzi Parkın yaşıllaşdırma konsepsiyasının əsas xüsusiyyəti bu istirahət məkanının ilin fəsillərini özündə əks etdirməsidir. Layihənin ən mühüm xüsusiyyətlərindən biri piyadaların Abdulla Şaiq küçəsinin hərəkət hissəsindən keçmədən maneəsiz gediş-gəlişi üçün yeraltı tunelin inşa edilməsidir. Onun inşası ilə Mərkəzi Parkın 1-ci, 2-ci və 3-cü hissələri arasında tam bağlantı yaradılıb. Ərazidə 3 fəvvarə kompleksi inşa edilib, idman qurğuları quraşdırılıb, uşaq əyləncə, həmçinin futbol-basketbol meydançaları, yaşlı insanların asudə vaxtlarının səmərəli təşkili üçün şahmat və stolüstü oyun meydançaları salınıb. Həmçinin burada süni göl və ətrafında söhbətgahlar yaradılıb ki, bu da şəhərimizin qonaqlarının və sakinlərin istirahətlərini daha maraqlı etmək üçün mühüm rol oynayır.

İstirahət parkında müasir işıqlandırma sistemi də qurulub. Ərazinin abadlaşdırılması zamanı burada XIX əsrin sonu - XX əsrin əvvəllərində inşa edilən və yerli sakinlər arasında "Təndir Hamamı" kimi tanınan tarixi memarlıq abidəsi bərpa edilərək əvvəlki simasına qaytarılıb. Parkın ətrafındakı tarixi və digər yaşayış binaları əsaslı təmir olunub, Süleyman Tağızadə və Nabat Aşurbəyova küçələrinə yeni asfalt örtüyü döşənib, piyada səkiləri və parklanma yerləri yaradılıb, işıq dirəkləri quraşdırılıb və digər işlər görülüb.

Ümumilikdə Mərkəzi Parkın üçüncü mərhələsinin tikintisi yekunlaşdıqdan, ərazidə yeni yaşıllaşdırma və abadlıq işləri görüldükdən sonra Təzəpir məscidi kompleksinin və Süleyman Tağızadə küçəsində yerləşən İmam Hüseyn" məscidinin mənzərəsi tam olaraq açılıb.

Beləliklə, Mərkəzi Parkın üçüncü hissəsinin istifadəyə verilməsi ilə keçmiş "Sovetski" adlanan ərazidə salınan parkın ümumi sahəsi 35,4 hektara çatdırılıb və bura paytaxtın ən gözəl istirahət guşələrindən birinə çevrilib.

Xatırladaq ki, Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakı şəhərində həyata keçirilən abadlıq-quruculuq işlərinin həcmi son illərdə daha da artıb. Paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni yaşıllıq zolaqlarının salınması, Bakının qədim tarixi memarlıq nümunələrinin bərpası və müasir binaların tikilib istifadəyə verilməsi ölkəmizdə həyata keçirilən abadlıq-quruculuq işlərinin davamlı xarakter aldığını nümayiş etdirir. Mərkəzi Parkın yeni istifadəyə verilən üçüncü hissəsi də paytaxtımızın daha da gözəlləşməsi, şəhərdə yaşıl guşələrin sayının artırılması və insanların səmərəli istirahəti baxımından mühüm əhəmiyyət daşıyır.

# Nazirlər Kabineti bərpa olunan enerji ilə bağlı qərar verdi



***Nazirlər Kabineti "İxrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" 22 aprel 1998-ci il tarixli qərarında dəyişiklik edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərarla, Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin təsdiqedici sənədləri əsasında, gömrük rüsumlarından azad olunmaqla idxal edilən bərpa olunan enerji və ondan səmərəli istifadə edilməsi sahəsində tətbiq olunan qurğuların, onların istehsalı üçün avadanlıqların hissə və ləvazimatlarının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə Siyahısı təsdiq edilib.

Qərar bu il iyunun 1-dən tətbiq edilir və 3 il qüvvədə olacaq.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi yaradıldı



***Prezident İlham Əliyev Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON) yaradılması və bununla əlaqədar bəzi məsələlərin həll edilməsi haqqında fərman imzalayıb.***

"Unikal" xəbər verir ki, fərmana əsasən Holdinqin idarəetməsinə veriləcək dövlət müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin və publik hüquqi şəxslərin siyahısı təsdiq edilib.

1. "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti
2. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti
3. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
4. "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti
5. "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti
6. "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyəti
7. Bakı Gəmiqayırma Zavodu
8. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki aşağıdakı qurumlar:

8.1. "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxs
8.2. "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti
8.3. "Azerbaijan International Telecom" (AzInTelecom)" Məhdud Məsuliyyətli Cəmiyyəti
8.4. "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti
8.5. "Bakı Taksi Xidməti" Məhdud Məsuliyyətli Cəmiyyəti
8.6. "Radio-Televiziya Yayımı və Peyk Kommunikasiyası" İstehsalat Birliyi

Siyahının 1-8-ci hissələrində nəzərdə tutulan hüquqi şəxslərin təsisçisi və iştirakçısı (iştirak payına uyğun) olduğu hüquqi şəxslər və müəssisələr.

# Deputatlar Prezident və xanımını təbrik etdilər

***Milli Məclis 8 Noyabr Zəfər Günü münasibəti ilə bağlı Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təbrik məktubu ünvanlayıb.***

"Unikal" xəbər verir ki, bu təklifi Milli Məclisin sədri Sahibə Qafarova parlamentin bu gün keçirilən iclasında irəli sürüb.

Deputatlar təbrik məktubunun göndərilməsini dəstəkləyiblər.

# Mərkəzi Bankın İdarə Heyətinə yeni üzvlər təyin edilib

***Mərkəzi Bankın İdarə Heyətinə yeni üzvlər təyin edilib.***

"Unikal" xəbər verir ki, Milli Məclisin bu gün keçirilən iclasında "Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyəti üzvlərinin vəzifəyə təyin edilməsi haqqında" məsələ müzakirəyə çıxarılıb.

Layihəyə əsasən, Toğrul Nəcəfəli oğlu Əliyev, Gülər Azər qızı Paşayeva, Əli İsmayıl oğlu Əhmədov və Vüsal Cahangir oğlu Xəlilovun Mərkəzi Bankın İdarə Heyətinə üzv təyin olunublar.

***Anar Kəlbiyev***

# 6 günlük tətil başlayır

***Azərbaycanda altıgünlük bayram tətili başlayır.***

"Unikal" xəbər verir ki, ölkədə 8 noyabr Zəfər Günü, 9 noyabr Bayraq Günüdür.

Noyabrın 9-u şənbə gününə təsadüf etdiyindən Nazirlər Kabinetinin "İş və istirahət günlərinin yerlərinin dəyişdirilməsi haqqında" müvafiq qərarına əsasən, noyabrın 11-i də qeyri-iş günü olacaq. Bundan başqa, iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə noyabrın 12-si və 13-ü iş günləri ilə müvafiq olaraq noyabrın 16-sı və 23-ü istirahət günlərinin yerləri dəyişdirilib.

Bununla da noyabr ayında ardıcıl olaraq 6 gün (8, 9, 10, 11, 12 və 13 noyabr) iş olmayacaq. Növbəti iş günü isə noyabrın 14-də olacaq.

39_27 IYUI-QARA.qxd 11/7/2024 10:30 PM Page 6



# Prezident Böyükşor-Pirşağı yolunun açılışını etdi

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Böyükşor-Pirşağı yeni avtomobil yolunun açılışında iştirak edib.***

"Unikal" xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına görülən işlər barədə məlumat verib.

Bildirilib ki, Böyükşor-Pirşağı yeni avtomobil yolunun uzunluğu 12,7 kilometrdir. Yeni yol başlanğıcını Balaxanı qəsəbəsinin ərazisindən (Böyükşor gölü) götürməklə Digah və Məmmədli qəsəbələrindən keçərək Kürdəxanı və Pirşağı qəsəbələrinə qədər uzanır.

Paytaxtda nəqliyyat axınının tənzimlənməsində böyük rol oynayacaq bu yol 1b texniki dərəcəyə uyğun olaraq ən müasir tələblər səviyyəsində inşa edilib və 6 hərəkət zolağından ibarətdir.



Layihəyə əsasən, yolboyu 6 yol ötürücüsü və bir avtomobil keçidi inşa edilib. Bundan başqa, yolboyu 3 yerdə "U" tipli geri dönüş keçidi yaradılıb.

Həm nəqliyyat vasitələrinin, həm də piyadaların ərazidə rahat və təhlükəsiz hərəkətini təmin etmək üçün yeni piyada səkiləri salınıb.Yeni avtomobil yolunun hər iki istiqaməti üzrə velosiped zolaqları salınıb, yolboyu müasir işıqlandırma sistemi quraşdırılıb. Layihəyə uyğun olaraq, ayırıcı zolaqlarda və yol kənarlarında əlavə abadlıq işləri görülüb. Bundan başqa, müasir tələblər nəzərə alınaraq yolun 3-cü kilometrində elektrik avtomobilləri üçün enerjidoldurma qurğuları quraşdırılıb.

Qeyd edək ki, Azərbaycan Prezidentinin Sərəncamına əsasən, Bakı şəhərinin perspektiv inkişafı nəzərə alınmaqla Böyükşor-Pirşağı avtomobil yolunun tikintisi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən icra olunub.

# Hakim vəzifəsinə namizədlərin seçilməsi ilə bağlı yeni qayda

***Azərbaycanda hakim vəzifəsinə namizədlərin seçilməsi ilə bağlı yeni qayda müəyyən edilir.***

"Unikal" xəbər verir ki, bu barədə məsələ Milli Məclisin iclasında müzakirəyə çıxarılan "Məhkəmələr və hakimlər haqqında" qanuna dəyişiklikdə öz əksini tapıb.

Qanun layihəsi hakim vəzifəsinə namizədlərin seçilməsi və hakimlərin fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı müddəaların təkmilləşdirilməsini nəzərdə tutur.

Layihədə vakant hakim vəzifələrinin qısa müddətdə komplektləşdirilməsi məqsədilə hakimlərin seçilməsi prosesinin daha da sürətləndirilməsi təklif olunur. Belə ki, hakimlərin seçilməsi test imtahanı, yazılı imtahan və müsahibə olmaqla, üç mərhələdən ibarət olacaqdır. Eyni zamanda, ilk dəfə hakim vəzifəsinə təyin olunan şəxslər hakim təyin olunduqdan dərhal sonra təlimə cəlb ediləcəklər.

Layihədə hakimlərin fəaliyyətinin qiymətləndirilməsi üçün Məhkəmə-Hüquq Şurasının ixtisaslaşmış orqanının Hakimlərin Qiymətləndirilməsi Komitəsinin yaradılması nəzərdə tutulur.

Bununla əlaqədar "Məhkəmə- Hüquq Şurası haqqında" Qanuna Hakimlərin Qiymətləndirilməsi Komitəsinin fəaliyyətini tənzimləyən yeni maddə əlavə edilir. 9 hakimdən ibarət olacaq Hakimlərin Qiymətləndirilməsi Komitəsi qiymətləndirmənin nəticəsinə dair yekun rəy tərtib etməklə, Məhkəmə-Hüquq Şurasına təqdim edəcəkdir. Hakimlərin fəaliyyətinin qiymətləndirilməsinin yekununda müəyyən olunan nəticələrin qanunda təsbit olunması təklif olunur. Bundan başqa, qiymətləndirmənin yekununda müəyyən olunan hər bir nəticəyə uyğun olaraq Məhkəmə-Hüquq Şurası tərəfindən qəbul edilən qərarlar qanunda dəqiq təsbit olunur.



Yuxarıda qeyd olunanlarla yanaşı, layihədə Hakimlərin Seçki Komitəsi və hakimlərin qiymətləndirilməsi ilə bağlı bir sıra digər normalar dəqiqləşdirilir.

Müzakirələrdən sonra qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

# Hərbi vəzifəlilərin təlim toplanışlarına çağırılması ilə bağlı yeni qayda

***Azərbaycanda müvafiq icra hakimiyyəti orqanında həqiqi hərbi xidmətdən ehtiyata buraxılmış və həmin orqanın ehtiyatına keçirilmiş birinci dərəcəli ehtiyatda olan hərbi vəzifəlilərin hərbi təlim toplanışlarına çağırılması ilə bağlı yeni qayda müəyyən edilir.***

"Unikal" xəbər verir ki, bu barədə məsələ Milli Məclisin iclasında müzakirə edilən "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, həmin şəxslər hər dəfə iki ayadək müddətə on dəfəyədək, lakin il ərzində bir dəfədən çox olmayaraq hərbi təlim toplanışlarına çağırılacaqlar.



Layihəyə əsasən, müvafiq icra hakimiyyəti orqanında həqiqi hərbi xidmətdən ehtiyata buraxılmış və müvafiq icra hakimiyyəti orqanının ehtiyatına keçirilmiş hərbi vəzifəlilərin toplanışlarda olmağının ümumi müddəti 30 aydan çox ola bilməz.

Toplanışlara cəlb ediləcək hərbi vəzifəlilərin sayını müvafiq icra hakimiyyəti orqanının təqdimatı ilə müvafiq icra hakimiyyəti orqanı müəyyən edəcək. Müvafiq icra hakimiyyəti orqanı toplanışlara cəlb edəcəyi hərbi vəzifəlilərin sayını müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla müəyyən edəcək.

Müzakirələrdən sonra qanun layihəsi səsə qoyularaq III oxunuşda qəbul edilib.

***Anar Kəlbiyev***

# Azad edilmiş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqlar icarəyə veriləcək

***Azərbaycanın işğaldan azad edilmiş ərazilərindəki kənd təsərrüfatı təyinatlı torpaqlar sahibkarlıq subyektlərinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada investisiya müsabiqələri vasitəsilə icarəyə veriləcək.***

"Uniakl" xəbər verir ki, bu barədə məsələ Milli Məclisin bu gün keçirilən iclasında müzakirə edilən "Torpaq icarəsi haqqında" qanuna təklif olunan əlavə və dəyişikliklərdə bağlı qanun layihəsində öz əksini tapıb.

Layihədə qeyd olunur ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarındakı əhalinin məskunlaşdığı kənd və qəsəbə ərazi vahidlərinin sərhədləri daxilində yaşayış məntəqələrinə yaxın aqrar təyinatlı torpaqlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada kənd və qəsəbə sakinlərinə (birillik və çoxillik əkinlərin aparılması üçün) güzəştli şərtlərlə icarəyə veriləcək.

Müzakirələrdən sonra qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

# Milli Məclisdə yeni şöbə yaradılsın - Vitse-spikerdən təklif

***Milli Məclisin sədr müavini Rafael Hüseynov parlamentdə Qanunvericilik dili və hüquq terminologiyası adlı şöbə yaradılmasını təklif edib.***

O, bununla bağlı Milli Məclisin plenar iclasında danışıb. Deputat qeyd edib ki, şöbədə hüquqşünaslar və dilçilər birləşə bilərlər: "Çünki qanun layihələrinin dili çətindir və bunu insanlara daha anlaşılan formada təqdim etmək vacibdir".

Milli Məclisin sədri Sahibə Qafarova deputatın təklifinə cavab olaraq bildirib ki, qanun layihələri əvvəlcə linqvistik ekspertizadan keçirilir: "Amma haqlı olaraq deputatlar da bu məsələdə bəzi məqamlara toxunurlar. Hüquqşünasların dili çətindir. Qanun layihəsini sadə dillə izah etmək lazımdır. Bununla razıyam".

# Bank kreditlərinin faizlərinin aşağı salınması təklif olunur

***"Azərbaycanda pul-kredit siyasəti düzgün həyata keçirilir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında deputat Siyavuş Novruzov deyib.

Deputat bank kreditlərinin fazilərinin aşağı salınmasını təklif edib.

***Anar Kəlbiyev***

# Məhkəmə-Hüquq Şurasının səlahiyyətləri artırıldı

***Azərbaycanda Məhkəmə-Hüquq Şurasının səlahiyyətləri artırılır.***

"Unikal"ın məlumatına görə, bu barədə məsələ Milli Məclisin noyabrın 7-də keçirilən iclasında müzakirəyə çıxarılan "Məhkəmə-Hüquq Şurası haqqında" qanuna dəyişiklikdə öz əksini tapıb.

Layihəyə əsasən, Məhkəmə-Hüquq Şurasının hüquqları sırasına aşağıdakılar daxil edilir:

- vakant hakim vəzifələrinə namizədlərin seçilməsi qaydalarını müəyyən etmək;
- Hakimlərin Qiymətləndirilməsi Komitəsi haqqında Əsasnaməni təsdiq etmək və Hakimlərin Qiymətləndirilməsi Komitəsini formalaşdırmaq;
- İlk dəfə 3 il müddətinə təyin olunan hakimlərin müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisələrində təlimə cəlb edilməsi qaydalarını müəyyən etmək;
- məhkəmə hakimiyyəti orqanlarının və Məhkəmə-Hüquq Şurasının aparatlarında dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibələrin nəticələrindən verilən şikayətlərə baxılması üçün Məhkəmə-Hüquq Şurasının Apellyasiya Şurasını yaratmaq;
- Məhkəmə-Hüquq Şurasının Apellyasiya Şurasının Əsasnaməsini təsdiq etmək.

Müzakirələrdən sonra qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

39_27 IYUl-QARA.qxd 11/7/2024 10:30 PM Page 7





# Emin Əmrullayev onu işdən çıxardı

***Elm və təhsil naziri Bakı Şəhəri üzrə Təhsil İdarəsində (BŞTİ) müdir müavinini vəzifəsindən azad edib.***

"Unikal" xəbər verir ki, nazir Emin Əmrullayevin müvafiq əmri ilə Orxan Teymur oğlu Kərimov işdən çıxarılıb.

Kərimov Orxan Teymur oğlu 1987-ci ildə Bakı şəhərində anadan olub.

2004-2008-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin Ümumi iqtisadiyyat fakültəsini "Maliyyə-kredit" ixtisası üzrə bitirərək bakalavr, 2011-2012-ci illərdə Birləşmiş Krallığın Belfast şəhərindəki Queens Universitetinin Menecment fakültəsini "Maliyyə və mühasibatlıq" ixtisası üzrə bitirərək magistr elmi dərəcəsini alıb.

2012-2017-ci illərdə SOCAR-ın müxtəlif idarələrində mühasib və iqtisadçı, 2017-2020-ci illərdə "Deloitte" şirkətində auditor vəzifəsində işləyib. 2020-ci ildə Azərbaycan Respublikası Təhsil İnstitutunun Layihə Katibliyinin rəhbəri vəzifəsində çalışıb.

Azərbaycan Respublikası təhsil nazirinin 2021-ci il 26 fevral tarixli əmri ilə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini vəzifəsinə təyin edilib.

Ailəlidir, 1 övladı var.

# Bayram günlərində banklar işləyəcək? - RƏSMİ

***Zəfər Günü və Dövlət Bayrağı Günü ilə əlaqədar 8-13 noyabr tarixlərində bankların və "Azərpoçt" MMC-nin bir sıra filial və şöbələri, habelə valyuta mübadilə məntəqələri fəaliyyət göstərəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Mərkəzi Bankından bildirilib. Qeyd edilib ki, bayram günlərində ümumilikdə 19 bankın 180 xidmət nöqtəsi (o cümlədən, 5 bank üzrə 12 xidmət nöqtəsi 24 saat rejimində olmaqla), "Azərpoçt" MMC-nin 68 şöbəsi, eləcə də valyuta mübadiləsinə lisenziya almış valyuta mübadiləsi məntəqələri müştərilərə xidmət göstərəcək.

Həmçinin noyabr ayında əlamətdar günlərin və COP29 tədbirinin təsadüf etdiyi qeyri-iş günlərində Mərkəzi Bankın 966 Qaynar xətti vətəndaşlara 09:00-18:00 saatları (13:00-14:00 fasilə) ərzində xidmət göstərməyə davam edəcək.

Qeyri-iş günlərində müvafiq maliyyə institutlarının iş qrafiki ilə bağlı məlumatı aşağıdakı keçidlərdən əldə etmək mümkündür:

Banklar

"Azərpoçt" MMC

Valyuta mübadilə məntəqələri

Qeyd edək ki, iqlim dəyişikliyinə qarşı beynəlxalq fəaliyyətin təşviq olunmasında əsas platforma kimi çıxış edəcək COP29 konfransının keçiriləcəyi məkanlarda bankların ATM və POS-terminal infrastrukturunun davamlı fəaliyyətinin təmin olunması diqqət mərkəzində saxlanılacaqdır.

# "Azərbaycanda həkim çatışmazlığı var"

## Adil Qeybulla: "Elə bir şərait yarada bilərik ki, həkimlərin burada qalması üçün marağı olsun"

***Tibbi elmləri doktoru, professor Adil Qeybulla "Unikal"a müsahibə verib. O, sosial şəbəkədə 50-yə yaxın plastik cərrahın saxta fəaliyyət göstərməsi ilə bağlı yazılanlardan, Azərbaycandakı həkim çatışmazlığından və pensiya yaşına çatan həkimlərlə müqavilənin uzadılmamasının səbəblərindən danışıb.***

***-Bu günlərdə ABŞ-də yaşayan jurnalist Qənirə Ataşova öz instaqram hesabında 50-yə yaxın plastik cərrahın adını paylaşaraq onları, həmçinin Səhiyyə Nazirliyini saxtakarlıqda ittiham edib. O, həmin həkimlərin nazirliyə rüşvət verərək ixtisaslarını dəyişdiklərini iddia edib. Burada söhbət estetik cərrahiyyə ilə məşğul olan həkimlərdən gedir. Mətbuatda və ya sosial şəbəkələrdə bu sahədən əziyyət çəkən şəxslərin şikayətlərinə tez-tez rast gəlinir. Həmin şəxslər pul qarşılığında ixtisaslarını dəyişə bilərmi və bu sahədə olan problemlərin aradan qaldırılması üçün hansı addımlar atılmalıdır?***

-Əgər belə hallar həqiqətə söykənirsə, əlbəttə ciddi şəkildə araşdırılmalıdır. Birbaşa estetik cərrah ixtisası yoxdur. Bu, diplomdan sonrakı təhsil hesab edilir. Estetik cərrahlıqla məşğul olan hər bir şəxsin ən azı 5-7 il ümumi cərrahlıq təcrübəsi olmalıdır. O təcrübədə ümumi cərrahlığın prinsiplərinə yiyələnməlidir. Ondan sonra estetik cərrahlıqla məşğul ola bilər. Hesab edirəm ki, bu məsələlər araşdırıla bilər və müvafiq qurumlar da buna aydınlıq gətirməlidirlər. İstənilən sual ortaya çıxıbsa, buna mütləq cavab verilməlidir. Bunu qulaqardına vurmaq olmaz. Yəqin ki, aidiyyəti qurumlar da buna reaksiya verəcəklər.

***-Milli Məclisin iclasında bir neçə deputat çıxışı zamanı Azərbaycanda həkim çatışmazlığından danışıb. Onların məvacib azlığından xaricə işləməyə getdiyi qeyd olunub. Sizcə, həkimlərin hazırkı əməkhaqqını qənaətbəxş hesab etmək olarmı?***

-Bəli, Azərbaycanda həkim çatışmazlığı var. 1992-ci ildə ölkəmizdə təxminən 28 minə yaxın həkim vardısa, hazırda bu rəqəm 33 mindən çoxdur. Yəni, artım beş mindir. Doğrudur, əhali də artıb. Hər il Azərbaycan Tibb Universitetində minə yaxın həkim hazırlanmasına baxmayaraq, bu sahədə həkim çatışmazlığından şikayətlənirik. Bunun səbəbi odur ki, ölkədən xaricə həddən çox axın var. Türkiyədə, Almaniyada, Fransada, ABŞ-də işləyənlər çoxdur. Bunun qarşısını birbaşa ala bilmərik. Çünki bu, insanların iradəsinə bağlı olan məsələdir. Amma elə bir şərait yarada bilərik ki, həkimlərin burada qalması üçün marağı olsun. Məsələn, rezidentura təhsili ilə bağlı demək istərdim. Niyə bizdə həkimlər erkən vaxtdan çıxıb gedir? Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik və Tədris Cərrahiyyə Klinikası var. Amma icbari tibbi sığorta ora xəstə vermir. Bu rezidentlər harada və necə öyrənsin? Onlar təcrübə toplamalıdırlar. Əslində Səhiyyə Nazirliyi və TƏBİB arasında gizli də olsa, səlahiyyət mübarizəsi var. Bu işə xeyli mane olur. Bir icra strukturunun iki yerə bölünməsi, işin effektivliyi xeyli aşağı salır. Əsas problem də bundadır. Ona görə də həkimlərin çoxu rezidenturada xəstə tapmır, öyrənə bilmir, məcbur olub Almaniyaya, Türkiyəyə gedir. Sonra da orada qalır. Və yaxud, başqa cavan həkimlər burada iş tapa bilmir, gedibbaşqa ölkədə qalır. Digər tərəfdən 65 yaşdan sonra həkimləri işdən çıxarırlar. Bu həkimləri başqa yerdə yerləşdirmək də olar. Onları həkimlərin az olduğu yerlərə göndərmək mümkündür. Müəyyən təcrübə toplamış həkimi o yaşdan sonra bayıra atmaq nə dərəcədə məntiqə uyğundur? Düşünürəm ki, xeyli yanlışlıqlar var və işimizi bu dərəcədə iflic duruma salıb.

***-Digər bir məsələ isə regionlarda həkim çatışmazlığı ilə bağlıdır. Bu baxımdan, rayonda yaşayan insanların sağlıq durumunda yaranan bir çox problemlə bağlı paytaxta gəldiyini müşahidə etmək olar. Həkimlərin regionlarda işləməsi və həkim çatışmazlığının qarşısını almaq üçün hansı işlər görülməlidir?***

-Regionlarda həkimlərin işləməsi üçün stimullaşdırıcı faktor olmalıdır. Belə ki, regionda çalışan həkimin Bakıda işləyəndən üstünlükləri olmalıdır. Ev verilməli, maaşı yüksək olmalı, kommunal şəraiti dərhal təmin edilməli, başqa kommunal xərclərdən də azad olunmalıdır. Yəni, bir sıra üstünlüklər verilməlidir. Rayona gedən həkim bilsin ki, bu cür üstünlükləri var. Bu, müəyyən dövr üçün çox vacibdir. İcbari tibbi sığorta yaranandan fiksə olunmuş maaş sisteminə keçməli idik. Bu, məsələnin həllinə çox kömək edəcəkdi, amma olmadı. Arxasında korporativ maraqlar dayanan işlər baş verdi və nəticədə bu istiqamətdə icbari tibbi sığortadan yararlana bilmədik. İcbari tibbi sığortanın bir hədəfi də həkimlərin peşəkarlığının artmasıdır. Hesab edirəm ki, bu işin qurulmasında da yanlışlıqlar olduğundan regionlarda həkim çatışmazlığı ilə üzə-üzə qalmışıq.



***-Pensiya yaşına çatan həkimlər bir çoxu müraciət edərək işləmək istədiklərini bildirirlər. Bəzən onlarla müqavilə bağlanılaraq işləmələri üçün imkan yaradılır. Bu da çox güman ki, həkim çatışmazlığı ilə bağlıdır. Bu baxımdan, səhiyyə işçilərinin pensiya yaşı ilə bağlı hansısa dəyişiklik etmək mümkündürmü?***

-Pensiya yaşına çatmış həkimi bayıra atmaq olmaz. Əgər həmin həkim əmək qabiliyyətini saxlayıbsa, təcrübəlidirsə, öz işindən məmnundursa, özü də pensiyaya getmək istəmirsə, ona hansısa formada şərait yaradılmalıdır. Ola bilər ki, çalışdığı xəstəxanada yer yoxdur və s. Onu başqa yerə göndərmək olar. Bu iş TƏBİB-in əlindədirsə, bunlara görə birbaşa məsuliyyət daşıyır. Bu cür həkimlərin işlə təmin olunmasına diqqət etmək lazımdır. Pensiya yaşına çatması o demək deyil ki, işdən azad olunsun. Pensiya yaşında o qədər adamlar var ki, Milli Məclisin deputatıdır, dövlət qurumunda çalışır və s. O zaman onları da çıxarmaq lazımdır? Bu düzgün yanaşma deyil. ABŞ-də bu gün 80 yaşlı şəxs prezident seçilir. İnsan əmək qabiliyyətini saxlayıbsa, faydalılıq əmsalı varsa, cəmiyyət onun fəaliyyətindən fayda görürsə, burada yaşın nə önəmi var? Bu əslində həkimlərə qarşı saygısızlıqdır. Bir məsələni də xüsusilə qeyd etmək istərdim. Sertifikasiya imtahanı deyilən biabırçı sınağın dünyada analoqu yoxdur. Həkimlər bu imtahanı niyə verməlidir? Axı, imtahanı verib diplom alıblar. Dünyanın hər yerində həkimlərin lisenziyasını davam etdirməsi üçün akreditasiya sistemi var. Niyə bu sistemi tətbiq etməli deyilik? Deməli ki, bunu tətbiq etməkdə maraq yoxdur. Buradan hansı məntiqi nəticə çıxır? Bunu isə oxucuların ixtiyarına buraxıram.

***Anar Kəlbiyev***

39_27 IYUl-QARA.qxd 11/7/2024 10:30 PM Page 8



# Əbülfəs Qarayevdən absurd açıqlamalar

## Sabiq nazir bir müsahibəyə bir neçə yalanı necə sığışdırdı?

***Bu günlərdə sabiq mədəniyyət naziri Əbülfəs Qarayev uzun fasilədən sonra ortaya çıxıb və BTV-yə müsahibə verib. Keçmiş nazirin müsahibəsi ilə tanışlıqdan sonra ilk ağla gələn budur: deyəsən, Əbülfəs müəllim bizim həqiqətən də unutqan xalq olduğumuzu düşünür və yaxın tarixdə onun rəhbərlik etdiyi sahə ilə bağlı baş verənləri artıq hafizəmizdən yerli-dibli sildiyimizi fikirləşir.***

Belə qənaətə gəlməyimiz səbəbsiz deyil. İndi də gəlin həmin səbəblərdən danışaq.

Müsahibənin bir yerində Qarayev deyir: "Mən həmişə çalışıram ki, bütün dəyişikliklərə müsbət baxam. Çünki cəmiyyət istər-istəməz qabağa, tərəqqiyə doğru getməlidir və hər bir yeni mərhələ yeni situasiyaları, yeni məzmunu, tələbləri irəli sürür. Sözsüz ki, bəzən kimsə başlayır mübahisə etməyə, hansısa dövrü yeni dövrlə müqayisə edir. Mən ancaq öz işlədiyim dövrə məsuliyyət daşıya bilərəm. Məndən sonra iki nazir dəyişib. Onlara böyük hörmətlə yanaşıram, öncədən də tanıyırdım, birgə çoxlu tədbirlər keçirmişik. Onlara ancaq uğurlar diləyirəm. Amma hər bir dövrün öz qaydaları, öz şərtləri var. Onlara uyğun hərəkət edilməlidir".



Əbülfəs müəllimin sözlərindən iki nəticəyə gəlirik. Əvvəla, keçmiş nazir əməlli-başlı tərəqqi, yeniləşmə tərəfdarı imiş! Elə isə uzun müddət mədəniyyət naziri postunu tutarkən rəhbəri olduğu qurumu niyə sovetdənqalma prinsiplərlə idarə edirdi? Adında "mədəniyyət" sözü olan bir nazirliyin rüşvət və korrupsiya yuvasına çevrilməsinə nə üçün göz yumurdu, ya da buna yaşıl işıq yandırırdı? Tərəqqipərvər bir insan yalnız dünyanın üçüncü ölkələrinin təcrübəsinə uyğun şəkildə özünə, ailə üzvlərinə biznes qurardımı? Sovet dövrünün qalığı olan fəxri adları qoruyub saxlamaq bir yana, onların nələrsə müqabilində verilməsinə şərait yaradardımı? Bakının tarixi binalarının dağıdılmasına, hansısa oliqarxlara peşkəş çəkilməsinə imkan verərdimi?

İkincisi, Qarayev deyir ki, özünün nazir olduğu dövrə görə məsuliyyət daşıyır. Əbülfəs müəllim deyə bilərmi ki, söhbət hansı məsuliyyətdən gedir? Mənəvi məsuliyyətdən danışırıqsa, sabiq nazir onun vəzifəsini itirməsi ilə nəticələnmiş anti-korrupsiya əməliyyatı zamanı Mədəniyyət Nazirliyində üzə çıxan rüsvayçılıqlara görə bircə yol üzr belə istəməyib. Bu rüsvayçılıqların baş verməsi səbəbindən günahkar olduğunu, xəcalət çəkdiyini dilə gətirməyib. Elə isə hansı mənəvi məsuliyyətdən danışmaq mümkündür?

Mənəvi məsuliyyəti qoyduq bir kənara, bəs hüquqi məsuliyyət necə olsun? Mədəniyyət Nazirliyinin həbs olunan vəzifəli şəxslərinin istintaqa ifadələrindən, məhkəmə çıxışlarından aydın görünürdü ki, bu qurumdakı rüşvət və korrupsiyadan Əbülfəs müəllim nəinki xəbərsiz imiş, hətta birbaşa işin içindəymiş. Əslində başqa cür olması da ağlasığmazdır. Yoxsa Qarayevin Azərbaycandakı və onun hüdudlarından kənardakı biznesi hansı pullar hesabına yarana bilərdi? Belə olan təqdirdə Əbülfəs müəllimin hüquqi məsuliyyətdən kənarda qalması, sadəcə postunu itirməklə yaxasını qurtarması nə qədər ədalətlidir?

Müsahibənin başqa bir yerində isə keçmiş nazir deyir: "Mənim dövrümdə nazirlikdə bəzi nöqsanlar oldu və o nöqsanlar mənim gözümdən qaçdı. Onun nəticəsi pis oldu. Mən deyə bilmərəm ki, mənə qarşı ədalətsizlik olub. Hamı qanun qarşısında eynidir. Əgər səhv varsa, onun məsuliyyətini çəkmək lazımdır. Ədalətsizlik onda olur ki, bu işin nəticəsində müəyyən insanları itirirsən. Dostlar, yaxınlar qalıb. Amma elə insanlar var ki, onları dost bilirdim, indi yoxdurlar".

Birincisi: əcəb işdir, Mədəniyyət Nazirliyində o boyda yeyinti, mənimsəmə, rüşvət əməllərinin üstü açılıb, Qarayev isə nöqsanlardan danışır? Cinayət əməlinin adı nə vaxtdan nöqsan olub? Nazir olduğu zamanda baş verən bibarıçılıqları, ciddi qanunsuzluqları sanki qüsur, xəta kimi qələmə verərək Əbülfəs müəllim öz yarıtmaz fəaliyyətinin dövlətə, xalqa, mədəniyyətimizə vurduğu ziyanların miqyasını kiçiltməyə çalışır. Ancaq bihudə işdir: bu ölkədə heç də hamı unutqan deyil və Qarayevin rəhbərlik etdiyi dövrdə Mədəniyyət Nazirliyində hansı cinayətlərin baş verdiyini əksəriyyət yaxşı xatırlayır.

İkincisi: eks-nazir yenə də "məsuliyyət daşımaqdan" danışır, ancaq demir ki, hansı səbəbdən o, Mədəniyyət Nazirliyindəki rüşvət və korrupsiya əməllərinə görə məsuliyyət daşımadı, istintaqdan, məhkəmədən kənarda qaldı? Qarayev məsuliyyət məsələsində səmimidirsə, həbsdəki işçiləri məhkəmədə onun dindirilməsini tələb edərkən niyə gizləndi, hakim önünə çıxıb öz məsuliyyəti ilə bağlı səmimi etiraflar etmədi?

Üçüncüsü: Qarayev nazir postundan uzaqlaşdırılması ilə ətrafının seyrəlməsindən də şikayətlənib. Necə deyərlər, "bağda ərik var idi, salaməleyk var idi, bağda ərik qurtardı, salaməleyk qurtardı". Əslində bu, qətiyyən təəccüblü deyil. Nazir postunu, məsul olduğu sahəni inkişaf etdirmək əvəzinə, çoxlu pul qazanmaq üçün vasitəyə çevirərsənsə, qazandığın dostlar da həmin pullar kimi çirkli, şübhəli olar: vəzifədən getdiyin an onlar da sənin yan-yörəni biryolluq tərk edib yeni "ərik" axtarışına çıxarlar...

Həyatdır, bu, Əbülfəs müəllim, nəyi əkirsənsə, onu da biçirsən.

***Sənan Mirzə***

# Rəşad Orucov vəzifəsindən azad olundu



***Mərkəzi Bankın İdarə Heyətinin üzvlərindən biri vəzifəsindən azad olunub.***

"Unikal" xəbər verir ki, bununla bağlı məsələ Milli Məclisin bu gün keçirilən iclasında müzakirəyə çıxarılıb.

Rəşad Temraz oğlu Orucov Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvü vəzifəsindən azad edilib.

# "Elman Rüstəmov deyirdi ki, evlərdə 10 milyard dollara qədər vəsait saxlanılır" - Deputat

***"Son illər 20-dən çox bank bağlanıb, ona görə də əhalinin banklara etimadı azalıb. Vaxtilə Elman Rüstəmov deyirdi ki, evlərdə 10 milyard dollara qədər vəsait saxlanılır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında deputat Qüdrət Həsənquliyev deyib.

"Hansı tədbirlər görülməlidir ki, həmin pullar iqtisadiyyatımıza yatırılsın və vətəndaşların banklara inamı bərpa olunsun? Bu baxımdan, Mərkəzi Bankın üzərinə böyük işlər düşür və konkret addımlar atılmalıdır. Mən təklif edəndə ki, 2 milyarda yeri banklara yerləşdirilsin, Elman Rüstəmov demişdi ki, bizim iqtisadiyyatımız bu vəsaiti həzm edə bilməz. Hər il milyardlarla vəsait xarici maliyyə qurumlarından kreditlər götürürük", - deyə deputat bildirib.

Qeyd edək ki, Elman Rüstəmov 1995-2022-ci illərdə Azərbaycan Mərkəzi Bankının sədri olub.

***Anar Kəlbiyev***

# Məhkəmə icraatı ilə əlaqədar prosessual müddətlər dəqiqləşdirilir



***Mülki məhkəmə icraatı zamanı məhkəmə üçün nəzərdə tutulan bir sıra prosessual müddətlər dəqiqləşdirilir.***

"Unikal" xəbər verir ki, bu barədə məsələ Milli Məclisin bu gün keçirilən iclasında müzakirə edilən Mülki Prosessual Məcəlləyə təklif edilən dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, müvəqqəti təminat tədbirinin ləğv olunması barədə ərizəyə məhkəməyə daxil olduğu vaxtdan 20 gün müddətində baxılacaq və həll ediləcək. Vəsatətə onun təqdim edildiyi və ya növbəti məhkəmə iclasından gec olmayaraq baxılacaq. Vəsatətdə göstərilən məsələ təxirəsalınmaz qaydada həll edilməli olduqda, vəsatətə baxılması ilə bağlı işdə iştirak edən şəxslərə məlumat verilməklə məhkəmə iclası təyin edilə bilər.

Qətnamədə və ya qərardadda buraxılmış yanlışlıqların və ya açıq hesab səhvlərinin düzəldilməsi barədə ərizəyə məhkəməyə daxil olduğu vaxtdan 10 gün müddətində baxılacaq və həll ediləcək.

Müzakirələrdən sonra dəyişiklik səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

# "Azərbaycanda evlənənlərin 40 faizi boşanır" - Deputat

***"Azərbaycanda evlənənlərin 40 faizi boşanır. Bu gün bütün dünya ölkələrində boşanmalar getdikcə artır. Təbii ki, Avropa ölkələri ilə Azərbaycanı müqayisə etmək olmaz. Orada qanuni nikahdan daha çox vətəndaş nikahlarıdır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan "Məişət zorakılığının qarşısının alınması haqqında" qanuna dəyişikliyin müzakirəsi zamanı deputat Məlahət İbrahimqızı deyib.

Onun sözlərinə görə, bir sıra ölkələr bunun qarşısını qismən ala biliblər: "Bu da həmin ölkələrdə fəaliyyət göstərən ailə məhkəmələridir. Məhkəmələrdə boşanmalarla bağlı məsələyə tələsik baxırlar. Qardaş Türkiyədə 2013-cü ildən Ailə Məhkəmələri fəaliyyət göstərir. Hansı ölkələrdə ki, bu məhkəmələr fəaliyyət göstərir, orada həm məişət zorakılığının, həm də boşanmaların qarşısını qismən ala biliblər. Boşanmaların əksəriyyətinin səbəbi ailədə baş verən davamlı məişət zorakılığıdır. Gələcəkdə boşanmalarla bağlı dinləmələrin keçirilməsi yaxşı olardı".

***Anar Kəlbiyev***

# Azərbaycanın qazandığı qələbə ilə regiona sülh gəlib



***"Azərbaycan qazandığı möhtəşəm qələbə ilə dünyaya ədalətin bərpa olunduğunu nümayiş etdirdi".***

"Unikal" xəbər verir ki, bu barədə Milli Məclisin bu gün keçirilən iclasında spikerin birinci müavini Əli Əhmədov bildirib. O qeyd edib ki, bu gün Azərbaycan sülh gündəliyini dünyaya bəyan edir, bu, böyük qələbədir.

"Bu qələbə regional və beynəlxalq əhəmiyyət daşıyır. Azərbaycanın qazandığı qələbə ilə regiona sülh gəlib. Fürsətdən istifadə edib Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Eyni zamanda zəfərimizin memarı cənab Prezidentə təşəkkürümüzü bildiririk",- deyə Əli Əhmədov bildirib.

# "Kartdan karta" üsulu ilə işləyən daha 150 sahibkar cəzalandırıldı

***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (DVX) Bakı şəhərində iaşə və pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan daha 150 vergi ödəyicisinə maliyyə sanksiyaları tətbiq edib.***

"Unikal" xəbər verir ki, pərakəndə ticarət və iaşə obyektlərində nağdsız ödənişlərin POS-terminal deyil, kartdan-karta köçürülməklə həyata keçirilməsi hallarının qarşısının alınması məqsədilə nəzarət tədbirlərini davam etdirir. Son günlər ərzində Bakı şəhərində keçirilmiş nəzarət tədbirləri zamanı 150-dən çox belə obyektdə qanun pozuntularına yol verilməsi faktları aşkarlanıb. Qanun pozuntuları protokollaşdırılıb və müvafiq maliyyə sanksiyaları tətbiq olunub.

Nağdsız ödənişlərin qəbulu yalnız POS-terminal vasitəsilə həyata keçirilməli və bu zaman vətəndaşlara POS-terminalın qəbzi ilə yanaşı nəzarət-kassa aparatının çeki də təqdim olunmalıdır. Mövcud qanunvericiliyə əsasən, istehlakçılara elektron ödəniş etmək imkanının yaradılması vergi ödəyicilərinin birbaşa vəzifələrinə aiddir. Sahibkarlar maliyyə sanksiyalarına məruz qalmamaq üçün nağdsız ödəmələr zamanı POS-terminallardan istifadəni təmin etməlidirlər.

# Bu il xarici bazarlara 142 milyon dollar dəyərində pomidor ixrac olunub



***Kənd təsərrüfatı dövlət dəstəyinin genişləndirilməsi, ixrac qabiliyyəti yüksək olan məhsulların yetişdirilməsinə dəstək mexanizmləri müsbət nəticələrini verir. Azərbaycandan xarici bazarlara ixrac olunan kənd təsərrüfatı məhsulları sırasında istixana şəraitində yetişdirilmiş pomidor xüsusi çəkiyə malikdir.***

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən "Unikal"a verilən məlumata görə, 2024-cü ilin ilk 10 ayı ərzində ölkəmizdən xarici bazarlara pomidor ixracının həcmində 4,8% artım qeydə alınıb. Yanvar-oktyabr ayları ərzində xarici bazarlara 141 milyon 965 min ABŞ dolları dəyərində 118922 min ton pomidor ixrac olunub.

İxrac olunan pomidorun dəyərində ötən illə müqayisədə 12,4 faizlik artım var. İstixana yetişdiriciliyinə marağın artması həm rəqabətədavamlı məhsul istehsalına, həm də xarici bazarlara daha çox məhsul ixrac etməyə imkan verir.

Azərbaycanda istixana şəraitində yetişdirilən pomidor əsasən Rusiya bazarlarına ixrac olunur.

# Azərbaycan nefti ucuzlaşdı

***Dünya bazarında Azərbaycan nefti ucuzlaşıb.***

"Unikal" xəbər verir ki, "Azeri Light" markalı neftin bir barelinin qiyməti 0,53 dollar və ya 0,68 faiz azalaraq 77 dollar olub.

Qeyd edək ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

# İri məmurla "tender kralı" arasında müəmmalı bağlar...

## Anar Bayramov Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinə sədr təyin edildikdən az sonra yaradılan şirkətlə bağlı ilginc iddialar dolaşır

***Dövlət satınalmalarında fəal iştirak edən və iri məbləğli tenderlərin qalibi seçilən şirkətlərdən biri də "ZN Trade" MMC-dir.***

Yerli KİV-in yaydığı məlumata görə, açıq mənbələrdə barəsində heç bir məlumat olmayan və yerli mediada müəmmalı şirkət kimi təqdim edilən "ZN Trade" MMC təkcə cari ildə 8 tenderin qalibi olub. Bu tenderlər üzrə satınalma müqaviləsinin ümumi maliyyə dəyəri 24 556 359,17 manatdır.

Şirkət sonuncu dəfə Naxçıvan Muxtar Respublikası (MR) Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reablitasiya Agentliyinin reabilitasiya vasitələri və yarımfabrikat protez mallarının satın alınması ilə bağlı keçirdiyi tenderin qalibi seçilib. "ZN Trade" MMC-nin bu tender üzrə qiymət təklifi 649 107,23 manatdır.



İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarına görə, "ZN Trade" MMC 09 sentyabr 2022-ci ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 10 manat olan şirkətin hüquqi ünvanı Bakı şəhəri Xətai rayonu, Oksigen küçəsi, ev 3/8-də yerləşir. MMC-nin qanuni təmsilçisi isə Kərimov Nüsrəddin Yolçu oğludur.

Nüsrəddin Kərimov haqqında da açıq mənbələrdə heç bir məlumata rast gəlinmir. Yerli medianın araşdırmaları nəticəsində isə məlum olub ki, adıçəkilən şəxs şirkəti təmsil etsə də, sahibi deyil.

"ZN Trade" MMC-nin sahibi olmasa da, himayədarı qismində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İdarə Heyətinin sədri Anar Bayramovun adı çəkilir. "ZN Trade" MMC ilə onun adının hallanması Protez-Ortopedik İstehsalat və Reablitasiya Mərkəzinin 12 milyonluq tenderində qalib gəlməsindən sonraya təsadüf edir.

KİV-lərin yazdıqlarından belə aydınlaşır ki, adı çəkilən MMC 09.09.2022-ci il tarixdə dövlət qeydiyyatına alınıb. MMC dövlət qeydiyyatına alındığı tarixdən cəmi 11 gün sonra "Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi"nin keçirdiyi qapalı (otaqda) və açıq məkanlarda istifadə üçün mexaniki təkərli və mühərrikli təkərli oturacaqların satınalması üzrə 3.758.808,58 dəyəri olan tenderin qalibi olub. Sonra, daha dəqiq desək, 09.03.2023-cü ildə isə MMC "Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi"nə 214.417,87 manat məbləğində təsərrüfat və dəftərxana malları alıb.

Onu da qeyd edək ki, "ZN TRADE" MMC dövlət qeydiyyatına alınandan sonra ancaq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tabeli qurumların keçirdiyi satınalmaların qalibi olub. Bura Nazirliyin "Dövlət Məşğulluq Agentliyi" Publik Hüquqi Şəxsi, Dövlət Sosial Müdafiə Fondu Publik Hüquqi Şəxsi, Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi, Sosial Xidmətlər Agentliyi, Dövlət Əmək Müfəttişliyi Xidməti kimi qurumları daxildir. "ZN TRADE" MMC-dən bu qurumlardan biri yubiley mərasimlərində təbrik və xatirə məqsədilə verilməsi nəzərdə tutulan hədiyyələr, biri video və qrafik çarxların çəkilməsi işləri, bir çoxu təsərrüfat və dəftərxana malları, biri çiçəkçilik və ağacəkmə malları, biri də su nasosu alıb.

Qeyd edək ki, "ZN TRADE" MMC dövlət qeydiyyatına alındıqdan sonra, 09.09.2022-ci ildən 18.09.2024-cü ilə qədər, yəni son iki ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tabeli qurumların keçirdiyi 21 dövlət satınalmasının qalibi olub və ümumi olaraq 36 923 835 milyon manat dəyəri olan sifariş alıb. Lakin cəmi iki il ərzində dövlətdən 37 milyon manat civarında tender udan bir MMC-nin nəinki bir rəsmi saytı, hətta sosial şəbəkə hesabı belə yoxdur. MMC barəsində açıq internet resurslarında heç bir məlumat yoxdur. MMC-nin ofisi, əlaqə telefonu ətrafında araşdırma səylərimiz də boşa çıxdı.

Göründüyü kimi, "ZN Trade" MMC-nin qalib gəldiyi tenderlər əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və onun tabeliyində fəaliyyət göstərən qurumların keçirdiyi satınalma müsabiqələrdir. Bütün bunlar "ZN Trade" MMC-nin heç də adi sahibkarlardan birinə məxsus olmadığına dair şübhələri artırır.

Xatırladaq ki, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin direktoru Anar Bayramov 2021-ci ildə bu vəzifəyə təyin edilib. Həmin təyinata qədər isə Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müşaviri vəzifəsində çalışıb.

"ZN TRADE" MMC-nin Anar Bayramov Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin sədr təyin edildikdən az sonra yaradılması ölkə mediasında müəmmalı məqam kimi qiymətləndirilir. Lakin nə Bayramov, nə də sözügedən şirkət son zamanlar ünvanlarına səsləndirilən iddialara hər hansı münasibət bildirməyib. Gəlin razılaşaq ki, elə bunun özü də maraq və təəccüb doğuran məqamdır...

***Toğrul Əliyev***

# Oliqarxların 4 manatlıq ət sevdası

## Həftənin sualı: ölkəmizə "su qiyməti"nə ixrac olunan ət harada istifadə olunur?

***Dövlət Gömrük Komitəsinin məlumatına görə, Azərbaycan Monqolustandan ət idxalını kəskin artırıb. 2023-cü ildə Azərbaycan bu ölkədən cəmi 40 ton təzə, soyudulmuş və ya dondurulmuş qoyun əti və ya keçi əti idxal edib. 2024-cü ilin təkcə birinci rübündə isə ölkəmizə Monqolustandan 121 ton ət gətirilib. Məlumata görə, bu ətin kilosu Azərbaycana 4 manata gəlib çıxır.***

Bu ilin əvvəllərində isə məlum olmuşdu ki, 2023-cü ilin yanvar-noyabr aylarında Azərbaycan Hindistandan ümumilikdə 4 milyon vasitəsilə müqavilələr əsasında müəssisələrin təminatı bunlara aiddir. Xaricdən gətirilən dondurulmuş ətlər daha çox bu sahələrdə istifadə olunur. Onların daxili bazara təsiri heç yoxdur demirəm, amma yox dərəcəsindədir".

Yuxarıda qeyd etdik ki, Azərbaycana kilosu 4-5 manatdan idxal edilən ətin keyfiyyətinə sırf qiymət səbəbindən şübhə ilə yanaşılmasına qarşı çıxanlar da var. Məsələn, Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirib ki, Monqolustan böyük qoyun əti ixracatçısıdır, haqqında danışılan ətlər də ən çox İrana gedir: "Bu ət məhsulunda salmonella bakteriyası aşkarlanıb və məhsulun qida sahəsində normativ sənədin tələblərinə uyğun olmadığı müəyyən edilib. Sitat: "Qanunvericiliyə uyğun olaraq, istehlaka yararsız məhsulun gömrük ərazisinin hüdudlarından kənara çıxarılması, məhv olunması və ya utilizasiya edilməsi barədə qərar qəbul olunub. Həmçinin aşkarlanan mal əti məhsulunun istehsal edildiyi müəssisənin məhsullarının ölkəmizə gətirilməsinə müvəqqəti qadağa qoyulub və Hindistanın aidiyyəti qurumuna müvafiq bildiriş göndərilib".

Qeyd edək ki, Azərbaycanda ət 421 min dollar dəyərində 1 705 ton mal əti alıb . Dövlət Statistika Komitəsinin məlumatına görə, 1 ton ətin idxal qiyməti son bir ildə 9,8% azalıb. Hindistandan 1 kiloqram ətin idxalı 4,41 manata, 2022-ci ilin eyni dövründə 5,49 manata (1,08 manat ucuzlaşma) başa gəlib.



Qeyd edək ki, son aylarda ətin qiymətində ciddi bahalaşma müşahidə edilir. Belə ki, iribuynuzlu heyvan ətinin bir kiloqramı hazırda 15-16 manatdan ucuz deyil. Quzu ətinin qiyməti isə 19-21 manat arasında dəyişir.

Belə olan təqdirdə ölkəyə gətirilən 4-5 manatlıq ətin keyfiyyəti ilə bağlı istər-istəməz şübhələr ortaya çıxır. Üstəlik, həmin ətin harada satışa, yaxud istifadəyə çıxarıldığı ətrafında da müəmmalar dolaşır. Hərçənd bu ətin keyfiyyətinə şübhə ilə yanaşılmasına qarşı çıxanlar da var.

Bəzi ekspertlər bu qiymətə idxal olunan ətdən əsasən yerli kolbasa istehsalında və şadlıq evlərində, restoranlarda istifadə olunduğu qənaətindədirlər. Məsələn, iqtisadçı ekspert Pərviz Heydərov müsavat.com-a deyib ki, idxal olunan ət məhsullarının 99 faizi emal prosesində istifadə olunmaq üçün gətirilir və dönərxanalara, pizza bişirilən yerlərə, kolbasa hazırlayan sexlərə, ictimai-iaşə obyektlərinə verilir. Sitat: "Çünki həmin məhsulların maya dəyəri aşağıdır. Hətta 7-8 manata aldığımız dönər məhsulunda istifadə olunan ət yerli istehsal deyil. Həmin dönərlərdə də xaricdən gələn ətlərdən istifadə olunur".

İqtisadçı Natiq Cəfərli isə modern.az-a deyib ki, Azərbaycana xaricdən gətirilən dondurulmuş ət bazara demək olar ki, təsir etmir: "Çünki o ətlərin spesifik istifadə yerləri var. Buraya həm dövlət sifarişləri, həm də özəl sifarişlər daxildir. Məsələn ordunun, məktəblərin, bağçaların, uşaq evlərinin ehtiyacları, eyni zamanda tenderlər məhsul ekoloji təmiz hesab olunur. Əlbəttə, həmin məhsul yerli Qarabağ qoyunları ilə eyni deyil. Merinos tipli qoyunlar müsəlman ölkələrinə ixrac olunur. Bu məhsulun gətirilməsi tam nəzarət altındadır. Oradakı qoyunçuluq təsərrüfatlarına da nəzarət edilir. Azərbaycana gətirilən məhsullara isə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi tərəfindən nəzarət edilir. Bu məhsullar əsasən restoranlara göndərilir. Az bir hissəsi sənayedə istifadə olunur. Bu ətlər açıq şəkildə az satılır...".

Yeri gəlmişkən, ötən ilin yayında Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) "Ovçular ət və ət məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Hindistandan ölkəmizə idxal etdiyi 27 ton 675 kq mal əti məhsulundan nümunələr götürülərək təhlükəsizlik göstəricilərinin müəyyən olunması məqsədilə adı çəkilən dövlət qurumunun müvafiq laboratoriyasına təqdim edildiyini açıqlamışdı. Açıqlamada daha sonra deyilirdi ki, aparılan sınaq nəticəsinə əsasən, idxalının bir neçə monopolistin nəzarətində olduğu barədə KİV-lər uzun müddətdir yazırlar. İddialara görə, elə ölkəyə gətirilən ətin istər keyfiyyəti, istərsə də qiyməti ilə bağlı məsuliyyət də bu inhisarçıların üzərinə düşür. Hətta ötən ilin payızında rəsmi mətbuat da bu mövzuya toxunmuşdu. "Ölkədə ət istehsalının, eləcə də idxal olunmuş ətin və heyvanların baş sayının artmasına baxmayaraq, daxili bazarda qiymətlər kəskin artmaqda davam edir. Görəsən, ətin sürətlə bahalaşmasının səbəbi nədir? Bəri başdan qeyd edək ki, qiymət artımını qaçılmaz edən səbəblərlə yanaşı, bu sahədə subyektiv amillər də az deyil" deyə bildirilmiş, daha sonra da vurğulanmışdı ki, ölkədə ətin bahalaşmasının əsas səbəblərindən biri də inhisarlaşma, xüsusilə ət kəsimi sahəsində son illər baş verən qeyri-sağlam mühitlə -möhtəkirliklə bağlıdır...

Fikrimizcə, əlavə şərhə ehtiyac qalmır.

***Sənan Mirzə***

## "Müəllimlərin yaşadıqları yerdən uzaq məktəblərdə işləməsi problemdir" - Deputat

***"Azərbaycanda orta məktəblərdə 150 mindən çox müəllim çalışır. Problemlərdən biri müəllimlərin yaşadıqları yerdən uzaq məktəblərdə işləməsidir. Məsələn, Yasamalda yaşayan müəllim 3 marşurut dəyişərək Pirşağıda dərs deməyə gedir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında deputat Fazil Mustafa deyib. O bildirib ki, bunun mənəvi və fiziki yorğunluğunu təsəvvür etmək lazımdır: "Bunu elə sistemləşdirməliyik ki, müəllim vaxtında məktəbə gələ bilsin. Müəllimin də ailəsi, sosial problemləri, ailəsinin qayğısı var. Bu, məktəbdə dərsin keyfiyyətinə də təsir göstərir. Müəllim işdən tələsik evə getməlidir ki, çata bilsin. Müəllimin bu vəziyyətini yüngülləşdirməyi vaxtında həll edə bilməsək, dərsin keyfiyyətinə təsir edən məsələlər gündəmdə qalacaq".

***Anar Kəlbiyev***

## Elm və Təhsil Nazirliyinin İT resursları "Hökumət buludu"nda

***"Hökumət buludu"nun (G-cloud) yaradılması və "bulud" xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında" Prezident İlham Əliyevin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanının icrası davam etdirilir.***

"Unikal" xəbər verir ki, fərmanın icrası çərçivəsində informasiya sistemləri və ehtiyatlarını "Hökumət buludu"na köçürən növbəti dövlət qurumu Elm və Təhsil Nazirliyi (ETN) olub.

Nazirliyin tabeliyindəki Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi (TSİİ) informasiya sistemləri və ehtiyatlarını qismən Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (RİNN) tabeliyindəki "AznTelecom" MMC-yə məxsus Bakı Data Mərkəzinə yerləşdirib. TSİİ "Hökumət buludu" layihəsi çərçivəsində Yerləşdirmə (Colocation) xidmətindən istifadə etməklə informasiya resurslarını miqrasiya edərək kritik sistemlərin yüksək əlçatanlığını təmin edib.

Qeyd edək ki, RİNN tərəfindən həyata keçirilən "Hökumət buludu" layihəsinin icraçısı "AzInTelecom" MMC-dir. Layihə çərçivəsində dövlət qurumlarının İT sistemlərinin "AzInTelecom"a məxsus Bakı və Yevlax Data mərkəzlərinə tam və ya qismən miqrasiyası həyata keçirilir. Dövlət qurumlarının "Hökumət buludu"na miqrasiyası ilə cari İT xərcləri azalır və informasiya sistemlərinin məhsuldarlığı artır. Beləliklə, informasiya sistemlərinin təhlükəsizliyinin daha da təkmilləşdirilməsinə, sabit və dayanıqlı İT infrastrukturuna, operativ koordinasiya ilə yüksəkkeyfiyyətli servis təminatı və 24/7 monitorinq xidmətinə nail olunur.

"AzInTelecom" MMC Azərbaycan və Cənubi Qafqaz regionunda "TIER III" Beynəlxalq uyğunluq sertifikatına malik ilk qurumdur. Şirkətə məxsus data mərkəzləri, həmçinin "ISO 20000", "ISO 22301" və "ISO 27001" sertifikatlarının tələblərini ödəyir.

## İlan sancan hamilə qadın ana oldu

***İlan sancması nəticəsində ağır vəziyyətdə Kliniki Tibbi Mərkəzə (KTM) gətirilən 7 aylıq hamilə qadın ana olub.***

"Unikal" xəbər verir ki, bu barədə Kliniki Tibbi Mərkəz məlumat yayıb. Bildirilib ki, ilan sancması səbəbilə Ağstafa rayonundan Kliniki Tibbi Mərkəzin Təcili və Təxirəsalınmaz Tibbi Yardım şöbəsinə hospitalizasiya olunan pasiyentin körpəsi elə KTM-də dünyaya gəlib. Oktyabrın 31-də Ağstafa rayonundan KTM-in doğum şöbəsinə gətirilən qadın fəsadlaşmış analıq anamnezi ilə Ginekoloji Patologiya şöbəsinə qəbul olunub.

Qadın daxil olduğu gündən noyabrın 6-sı tarixinə qədər müvafiq müayinələrdən keçib və stasionar şəkildə müalicələr alıb.

Ötən gün ananın və dölün perinatal mühafizəsi məqsədilə tibbi göstərişlərə əsasən, keysəriyə kəsiyi əməliyyatı icra olunub. Çəkisi 3 kq, boyu 51 sm olan oğlan uşağı dünyaya gəlib.

Hazırda ananın və körpənin vəziyyəti kafidir.

39_27 IYUl-QARA.qxd 11/7/2024 10:30 PM Page 11





## 2024-cü ilin 9 ayında Abşeron rayonunun "Sosial-iqtisadi inkişafı" statistikası

***Azərbaycanın bugünkü inkişafı respublikamızın regional və dünya iqtisadiyyatında rolunu və əhəmiyyətini xeyli yüksəldib. Ardıcıl və sistemli şəkildə həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində insanların rifahının yaxşılaşdırılması sahəsində möhtəşəm nailiyyətlər əldə edilib.***

İqtisadiyyatımızın inkişafında Abşeron rayonu da əhəmiyyətli inkişaf potensialına malikdir. Belə ki, rayonda fəaliyyət göstərən sənaye müəssisələri tərəfindən ilin doqquz ayı ərzində 709.1 milyon manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. Sənayenin inkişafında qeyri-dövlət sektorunun fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Qeyri-dövlət subyektləri tərəfindən hesabat dövrü ərzində 637.9 milyon manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da ümumi məhsulun 90.0 faizi qədərdir.

Rayonun sosial-iqtisadi infrastruktur sahələrindən biri olan nəqliyyat sektoru da cəmiyyətin inkişafında mühüm rol oynayır. Dövr ərzində fiziki şəxslər tərəfindən yük və sərnişin daşınmasından əldə olunan gəlir 31.1 milyon manat olmuşdur.

Hesabatların təhlilindən məlum olur ki, bu dövründə müəssisə və təşkilatlara, həmçinin əhaliyə faktiki qiymətlərlə 21.8 milyon manatlıq və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 17.4 faiz çox rabitə xidməti göstərilməklə rayonun iqtisadi inkişafında rabitə və informasiya sahəsi də əhəmiyyətli yer tutur. Bu sahədə əldə olunan gəlirin 59.4 faizi qeyri-dövlət sektorunun payına düşür.

Yanvar-sentyabr aylarında rayonda 130.0 milyon manatlıq investisiya qoyuluşu olmuşdur ki, bu investisiyanın 119.4 milyon manatı tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilmişdir.

Cari dövr ərzində əhaliyə pərakəndə ticarət və iaşə şəbəkələrindən 1105.6 milyon manata bərabər istehlak malları satılmış və iaşə xidmətləri göstərilmişdir ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən faktiki qiymətlərlə 2.9 faiz çoxdur. Əhaliyə göstərilən ödənişli xidmətin dəyəri isə 121.9 milyon manat olmuş, bunun da 56.0 milyon manatı dövlət, 65.9 milyon manatı isə qeyri-dövlət mülkiyyətinə məxsus təşkilatlar tərəfindən əldə edilmişdir.

Abşeron rayonunda 2024-sü ilin yanvar-sentyabr aylarında 365,5 hektar sahədə payızlıq və yazlıq dənli və dənli paxlalı bitkilərin (qarğıdalısız) əkini aparılmış və bu əkin sahəsindən 416,7 ton məhsul yığılmışdır.

Rayonun kənd təsərrüfatı müəssisələrində, əhali və kəndli fermer təsərrüfatlarında cari il oktyabr ayının 1-i vəziyyətinə 20501 baş iribuynuzlu mal qara, o cümlədən 12666 baş inək və camış, 84953 baş isə qoyun və keçi mövcud olmuşdur. Təqdim olunan statistik məlumatlara və müvafiq hesablamalara görə diri çəkidə 6592 ,0 ton ət, 31264,0 ton süd istehsal edilmişdir.

2024-cü il oktyabr ayının 1-i vəziyyətinə Abşeron rayonunda iqtisadiyyatın bütün sahələrini əhatə etməklə faktiki işləyənlərin sayı 47344 nəfər olmuş, bundan 13556 nəfəri dövlət, 33788 nəfəri isə qeyri-dövlət sektorunu əhatə etmişdir. Hesablanmış əməkhaqqı fondu 207948.0 min manat olmuşdur. Rayon üzrə bir işçiyə düşən orta aylıq əməkhaqqı 734.4 manat təşkil etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə faktiki işləyənlərin orta sayı 10.9 faiz, orta aylıq əməkhaqqı isə 5.0 faiz artmışdır.

Rayonda sosial sahənin inkişafı da yüksək səviyyədə təmin olunur, quruculuq-abadlıq işləri davam etdirilir.

***Təvəkkül Mirzəyev,***
***Abşeron Rayon Statistika İdarəsinin rəisi***

# İmişlidəki tenderlərdə Vilyam Hacıyev havası...

## Yarım milyon manatlıq dövlət satınalması müzakirələrə səbəb olub - Son vaxtlar bu rayondakı tenderlərin nəticələri niyə ləğv edilir?

***İmişli Rayon İcra Hakimiyyəti başçısının İmişli şəhəri üzrə icra nümayəndəliyi Aşıq Ələsgər və Həzi Aslanov küçələrində abadlıq işlərinin satın alınması ilə bağlı tenderə yekun vurub. Qaynarinfo-nun məlumatına görə, tenderin qalibi "Baku Building" MMC seçilib. Abadlıq işlərinə 485 619,44 manat xərclənəcək.***

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarına görə, "Baku Building" MMC 2019-cu ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 10 manat olan şirkətin hüquqi ünvanı Bakı şəhəri Binəqədi rayonu, Biləcəri qəsəbəsi, ev 37B-də yerləşir. MMC-nin qanuni təmsilçisi Hüseynov Samir Rafiq oğludur. Samir Hüseynovdan əvvəl şirkəti Göyüşov Mahal İman oğlu təmsil edib. Mahal Göyüşov isə Mirzəyev Əli Məmməd oğlunu əvəz edib.



Mediada gedən məlumatlara görə, şirkətin sahibi də Əli Mirzəyevdir. Yerli KİV-də yazılanlardan belə aydınlaşır ki, o, tender kralı kimi tanınan iş adamı Ramazan Mirzəyevin qardaşıdır.

Bir neçə il əvvəl "Qlobal Aqro" MMC-dəki maliyyə maxinasiyaları ilə bağlı yayılan məlumatlarda Ramazan Mirzəyevin də adı keçirdi. İddia olunurdu ki, "Qlobal Aqro" MMC-yə məxsus olan və 2000 hektar ərazidə yaradılan aqroparka ayrılan dövlət vəsaitləri əslində həmin vaxt Kürdəmir rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində işləyən Ceyhun Cəfərovla birgə mənimsəyib. Mənimsənilən pullar isə "Rabitə işi" çəçivəsində həbs edilən və sonradan azadlığa çıxan Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin keçmiş aparat rəhbəri Vidadi Zeynalovun dövlətə vurduğu zərərin bir hissəsinin ödənilməsinə yönləndirilib.

Onu da deyək ki, İmişli rayonunda dövlət satınalmaları ilə bağlı müəmmalı durum hazırda həbsdə olan sabiq icra başçısı Vilyam Hacıyevin zamanında yaranıb. 2020-ci ilin mayın 5-də məhkəmənin qərarı əsasında Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən V.Hacıyevin xidməti və yaşadığı ünvanlarda əməliyyat-istintaq tədbirləri həyata keçirilib. Daha sonra o, həbs edilib.

Həmin vaxt həbsdəki sabiq başçının icra hakimiyyətinin sərəncamında olan vəsaitlərin sosial yardım adı altında bir hissəsinin ələ keçirilməsi, eləcə də ölkə ərazisində xüsusi karantin rejiminin tələblərinin pozulması ilə sərbəst hərəkət etmək üçün bəzi vətəndaşlara saxta arayışların verilməsini tapşırması, vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə mənimsənilən pul vəsaitlərini sahibliyində olan yaşayış evində qəbul etdiyi aydınlaşmışdı.

Müvafiq ünvanlarda keçirilmiş baxış zamanı Vilyam Hacıyevin rayon icra hakimiyyətinin baş mühasibi Cəmil Musayev və başqaları vasitəsi ilə qəbul etdiyi pul vəsaitlərinin məbləğlərinə dair müxtəlif qeydlər, habelə ayrı-ayrı valyutalarda xüsusi qaydada qablaşdırılaraq saxlanılan pul vəsaitləri, iş üzrə əhəmiyyət kəsb edən digər sənədlər və maddi sübutlar aşkar edilərək götürülmüşdü. Həmçinin sosial-məişət şəraitinin aşağı olması ilə bağlı mənzil növbəsində olan şəxslərə İmişli şəhərində dövlət büdcəsi vəsaiti hesabına inşa edilmiş çoxmənzilli yaşayış binasında növbəli qaydada verilməli olan mənzillərin Vilyam Hacıyev tərəfindən rüşvət müqabilində qanunazidd verilməsi, onun tabeçiliyində olan vəzifəli şəxslər vasitəsilə yerli icra hakimiyyəti və digər dövlət orqanlarının vəzifəli şəxslərindən, eləcə də rayon ərazisində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşlardan müxtəlif adlar altında pul vəsaitləri tələb edərək alması ortaya çıxmışdı.

Eyni zamanda Hacıyevin rayon ərazisində təmir-tikinti, abadlıq işlərinə, habelə İmişli Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının tikintisinə ayrılan dövlət vəsaitlərinin müəyyən hissəsinin mütəmadi nağdlaşdıraraq mənimsəməsi də sabiq başçının həbsi ilə nəticələnən önəmli nüanslardan biri idi.

Son vaxtlar isə İmişlidəki tenderlərlə bağlı yenə də müəyyən suallar doğuran xəbərlər gəlməkdədir. Elə "Qlobal Aqro" MMC-dəki maliyyə maxinasiyaları ilə bağlı yayılan məlumatlarda Ramazan Mirzəyevin qardaşına məxsus şirkətin yarım milyonluq dövlət satınalmasının qalibi elan edilməsi də bu qəbildəndir.

Üstəlik, son vaxtlar bu rayonda keçirilən bir neçə tenderin nəticələrinin ləğvi də yerli məmurların satınalma müsabiqələri zamanı hələ də Vilyam Hacıyev dövrünün "havası" ilə hərəkət etdiyini göstərir. Məsələn, son olaraq ötən ay büdcədənkənar (xüsusi) vəsait hesabına İmişli rayonunda şəhid ailələrinin yaşadığı və şəhid adı verilmiş küçələrdə yolların əsaslı təmiri məqsədi ilə 500.665,74 manat pul ayrıldığı, lakin Anti-İnhisar və İstehlak Bazarına Nəzarət Xidməti dövlət qurumunun qanunun tələbini pozduğunu əsas tutaraq, İmişli İcra Hakimiyyəti barəsində 03 oktyabr 2024-cü il tarixli AİBNDX/SQ-9917/2024 nömrəli qərar qəbul etdiyi barədə məlumat yayıldı. Məlumata görə, qərarda İmişli İH-nin qiymət şişirtdiyi, xərcləri məqsədli böyütdüyü qeyd edilib.

Yerli rəhbərlik istər bu xəbərə, istərsə də rayondakı son bir neçə tenderin nəticələrinin ləğvi ilə bağlı xəbərlərə hər hansı münasibət bildirməyib.

Xatırladaq ki, İmişli rayonunun icra başçısı Rzayev Elçin Adil oğludur.

***Sənan Mirzə***

39_27 IYUI-QARA.qxd 11/7/2024 10:30 PM Page 12



## 5.3.17. ekologiya və ətraf mühitin mühafizəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Utilizasiya köhnə avtomobillərin sayını azaldacaq!

## Xəyal Əzizli: "Həyatində köhnə maşını olan insanlara tövsiyyə edirəm ki, avtomobillərini aparıb utilizasiyaya versinlər"

***Müasir dünyada atmosfer havasının çirklənməsində avtonəqliyyat vasitələrindən atılan zərərli maddələr əsas yer tutur. Azərbaycanda COP29 ərəfəsində nəqliyyatın təsirindən atmosfer havasının çirklənməsinin qarşısının alınması istiqamətində əhəmiyyətli işlər görülür.***

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) üçün avtobus parkının 50 %-i "Yaşıl avtobus"larla təchiz olunub. COP29 tədbirinə qədər Bakıya 160 yeni elektrikli avtobus gətirilərək istifadəyə veriləcək. Görülən işlər təkcə bununla məhdudlaşmır. Avtomobillərin atmosfer havasının çirklənməsinə təsiri böyük olduğundan, ölkəmizdə avtobus parkları yenilənməklə yanaşı, yollarda şütüyən köhnə avtomobillərin sayının azalması istiqamətində də işlər görülür. Dövlət Statistika Komitəsinin məlumatına görə, keçən il avtomobillərdən atılmış zərərli maddələrin həcmi 6,3 faiz artıb, stasionar mənbələrdən atılmış maddələrin həcmi isə 8,9 faiz azalıb. 2023-cü ildə ölkədə stasionar mənbələrdən və avtomobillərdən atmosfer havasına atılmış çirkləndirici maddələrin həcmi 2022-ci illə müqayisədə 34,5 min ton çoxalaraq ümumilikdə 965,1 min ton təşkil edib. 965,1 min tonun 85 faizi və ya 820,8 min tonu avtomobillərdən atılan tullantıların payına düşüb. Stasionar mənbələrdən atılan zərərli tullantıların həcmi sənaye mərkəzlərindən olan Bakı şəhərində 21,1 min ton, Sumqayıt şəhərində 0,9 min ton azalıb, Mingəçevir şəhərində isə 0,2 min ton artıb.Profilaktik tədbirlər nəticəsində ötən il stasionar mənbələrdə yaranan zərərli maddələrin 67,3 faizi təmizləyici qurğular vasitəsilə tutularaq zərərsizləşdirilib. Atmosferə atılan zərərli maddələrin miqdarının azaldılması üçün sənaye müəssisələrində texnoloji proseslərin təkmilləşdirilməsi və mövcud təmizləyici qurğuların səmərəliliyinin artırılması nəticəsində hava hövzəsinə il ərzində 85,2 min ton zərərli maddələrin atılmasının qarşısı alınıb. Bütün mənbələrdən atmosferə atılmış zərərli tullantıların 61,5 faizini karbon oksidi, 21,3 faizini karbohidrogenlər, 13,4 faizini azot oksidi, 0,1 faizini kükürd anhidridi, qalan hissəsini isə digər çirkləndirici maddələr təşkil edib.



Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov "Unikal" qəzetinə açıqlamasında bildirib ki, atmosferə zərərli qazlar daha çox köhnə avtomobillərdən atılır. Ona görə də, inkişaf etmiş ölkələrdə avtomobillərin utilizasiyasına böyük önəm verilir. Ekspert deyir ki, avtomobillərin utilizasiyası prosesinə ölkəmizdə də başlanılması böyük əhəmiyyət daşıyır.

"Ölkəmizdə avtomobil parkının çoxu ömrünü başa vurmuş köhnə avtomobillərlə doludur. Azərbaycanda utilizasiya proqramı hələ ki, könüllü xarakter daşıyır. Amma gələcəkdə məcburi ola bilər. Çünki, ölkədə metalloma çevrilən nəqliyyat vasitələri çoxdur. Belə istismara yararsız qalan avtomobillər şüalanma yaradaraq ətraf mühitə ziyan vurur. Həmin metallomların yığışdırılması üçün gələcəkdə icbari utilizasiya da tətbiq edilə bilər", deyə E. Cəfərov bildirib.

"Təmiz Şəhər" ASC-dən isə sorğumuza cavabda bildirilib ki, Azərbaycanda nəqliyyat vasitələrinin utilizasiyaya verilməsinə artıq başlanılıb. "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununun nəqliyyat vasitələrinin utilizasiyası ilə bağlı bu ilin sentyabr ayından qüvvəyə minmiş olan müddəalarına uyğun olaraq, ötən müddət ərzində "Təmiz Şəhər" ASC tərəfindən utilizatorların reyestrdə qeydiyyatı üçün tədbirlər görülüb. Utilizator fəaliyyəti üzrə nəzərdə tutulan tələblərə cavab verən "Fors" MMC nəqliyyat vasitələrinin utilizatorlarının reyestrində qeydiyyata alınmış, utilizasiya məqsədi ilə nəqliyyat vasitəsini təhvil verən vətəndaşa ilk təsdiqedici sənəd təqdim olunub.

Qeyd edilib ki, nəqliyyat vasitələrinin utilizasiyaya verilməsi könüllülük prinsipi əsasında həyata keçirilir və məcburi xarakter daşımır. Utilizasiyaya verilməzdən əvvəl nəqliyyat vasitəsi "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilən qaydada dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmalıdır. Uçotdan çıxarıldıqdan və utilizatora təhvil verildikdən sonra nəqliyyat vasitəsini utilizatora təhvil verən şəxsə yerli istehsal yeni nəqliyyat vasitəsi almaq üçün güzəşt və ya birdəfəlik ödəniş hüququ verən təsdiqedici sənəd verilir.

Məlumatda o da bildirilib ki, ölkəmizdə hər il istismar olunan çox sayda nəqliyyat vasitəsi köhnəlmə və yol-nəqliyyat hadisələri nəticəsində istifadəyə yararsız hala düşür. Statistik göstəricilərə əsasən, hazırda respublikada hər beş avtomobildən biri ekoloji və təhlükəsizlik standartlarına cavab vermir. Bunu nəzərə alaraq "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"na əsasən Azərbaycanda nəqliyyat vasitələrinin utilizasiyası proqramı hazırlanmış, həmçinin, proqramın tətbiqi ilə əlaqədar ümumilikdə 10-dan çox qanunvericilik aktına dəyişiklik və əlavələr edilib. Qurumdan bildirilib ki, artıq bir nəfər öz avtomobilini utilizasiyaya təqdim edib.

Ölkəmizdə avtomobilini utilizasiyaya təqdim edən Xəyal Əzizli isə bildirib ki, avtomobilini utilizasiyaya təqdim edərkən heç bir xərci çıxmayıb. O, artıq 1986-cı ilin istehsalı olan "Volsfagen Getta" markalı avtomobilini utilizasiyaya təqdim etdiyini, əvəzində ona 1050 manat pul ödəniləcəyini söyləyib.

"Həyatində köhnə maşını olan insanlara tövsiyyə edirəm ki, avtomobillərini aparıb utilizasiyaya versinlər. Mənim avtomobilim illərlə həyətdə qalmışdı. Utilizasiyaya başlanıldığını eşidən kimi müraciət etdim və avtomobilimin dövlət qeydiyyatından çıxardılması üçün ərizə yazdım. Mənə avtomobilimin əvəzinə Azərbaycan istehsalı olan "Xəzər" avtomobili almaq üçün 1500 manatlıq vauçer təklif etdilər. Bildirdilər ki, avtomobilin əvəzinə 1050 nağd pul da verilə bilər. Mən də nağd pulu seçdim. Sənədlərimi və avtomobilimi götürdülər, bildirdilər ki, pul hesabıma köçürüləcək".

***Gelayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

## Orqanizminizdəki mikroblardan xəbəriniz var?

***Orqanizmimiz mikroblarla doludur. Mikrobların insan orqanizminə həm xeyri, həm də ziyanı var. Əsas odur ki, mikrobların miqdarı bərabər olmalıdır. İnsan orqanizminin mikrob disbalansının pozulması disbakterioz xəstəliyinə səbəb olur.***

Disbakterioz zamanı normal və atipik mikroflora arasındakı tarazlıq pozulur. Bu xəstəliyə yaşlıların 90 faizində, uşaqlarınsa 95 faizində rast gəlmək mümkündür. Disbakterioz əsasən, nazik və yoğun bağırsaqda aşkarlanır. Nazik bağırsaqda disbakterioz sərbəst yox, hansısa bir xəstəlikdən sonra meydana gəlir. Yoğun bağırsağın disbakteriozu isə normal mikrofloranın müxtəlif səbəblərindən (orqanizmin müdafiə qüvvsinin zəifləməsi, həzm traktı xəstəlikləri, qeyri-düzgün qidalanma) baş verə bilər.

Yenicə doğulmuş körpələrdə disbakterioz xəstəliyinin yaranmasının bir neçə səbəbi var. Onlar arasında ananın körpəni gec əmizdirməsi, bağırsaq funksiyasının yetişməməsi ilkin sıradadır.

Disbakterioz zamanı bağırsaqda candida cinsinə aid olan şərti-patogen göbələkləri çoxalmağa başlayır. Bu zaman kökəbənzər uzun substansiyalar inkişaf edir. Nəticədə, həzm traktı ilə qan damarları arasında sərhəd pozulur və həzm olunmayan zülallar qana keçərək, immun sisteminə təsir göstərir.

**Disbakteriozun səbəbləri:**
- Antibiotiklər
- Hormonal dərmanlar
- Antidepressantlar
- Mədə xorası
- Kolit
- Konservləşdirilmiş ərzaqlar
- Keyfiyyətsiz ət

**Disbakteriozun əlamətləri:**
- İshal
- Steatoreya
- Çəkinin günü-gündən azalması
- Anemiya
- İştahasızlıq
- Qarında köp
- Ağızda xoşagəlməz dad
- Ürəkbulanma
- Ən ağır halda isə bağırsaq xorası meydana çıxır
- Saçların tökülməsi
- Aqressivlik
- Tez yorulma

**Xəstəliyin fəsadları:**

Müalicəsiz qalan xəstəlik daha da irəliləyərək, bir çox fəsadlar ortaya çıxarır. Xəstədə ekzema, bronxial astma, qaraciyər sirrozu, şəkərli diabet, allergiya kimi xəstəliklər əmələ gəlir. Hətta müalicəsiz qalan disbakterioz yoğun bağırsaq xərçənginə də səbəb olur.

**Profilaktikası:**

Spirtli içki qəti qadağandır. Xroniki stres faktorlarından uzaq olmaq lazımdır. Qidalanma rejiminə nəzarət edilməlidir. Süd məhsullarının qəbulu məsləhət görülür. Antibiotik və digər infeksiyaəleyhinə preparatlar qəbul edilməlidir.

**Diqqət! Diqqət!**

Disbakterioz zamanı yeməkdən sonra çay və ya kofe içmək olmaz. Qətiyyən duza qoyulmuş tərəvəzlər yemə. Çalışın, qızartma yeməklərdən uzaq olun.

**Disbakterioz əleyhinə əla vasitə:**

- Səhər və ya axşam bir diş sarımsaq yemək orqanizmin mikrob balansını tənzimləyir, disbakteriozun qarşısını alır.

- Bataqlıq zanbağından 10 qr., tikanlı murdarça qabığından 30 qr., nanə qurusundan 20 qr., gicitkən yarpağından 20 qr., zəncirotu kökündən 10 qr., pişikotu kökündən 10 qr. götürüb qarışdır. Qarışıqdan 1 xörək qaşığı götürüb, 1/2 stəkan qaynar suya tökübdəmlə. Gündə iki dəfə bu dəmləmədən iç.

- 20 qr. tikanlı murdarça qabığını, 20 qr. anisi, 10 qr. boymadərəni, 20 qr. sarpet xardalını, 30 qr. biyan kökünü qarışdır. Qarışığın üstünə 1 litr su tök. Məlhəmdən gündə 2 dəfə 1/2 stəkan iç.

- Mərsindən, dəmrovotundan, nanədən, qarağat yarpağından, öküzboğandan, qızıl çətirdən eyni miqdarda götürüb qarışdır. Bu qarışıqdan 0,5 litr qaynar suya 2 xörək qaşığı töküb, 1 gecə termosda saxla. Gündə iki dəfə, yeməkdən 30 dəqiqə əvvəl məlhəmdən yarım stəkan iç.

39_27 IYUl-QARA.qxd 11/7/2024 10:31 PM Page 13






# Bakı aeroportunda müvəqqəti dəyişiklik

***Ölkəmizdə keçiriləcək COP29 beynəlxalq konfransı ilə əlaqədar Heydər Əliyev Beynəlxalq Aeroportu sərnişinlərin rahat və təhlükəsiz səyahətini təmin etmək məqsədilə müvəqqəti dəyişikliklər tətbiq edəcək. Sərnişinlərə bu dövrdə səyahətlərini öncədən planlaşdırmaları tövsiyə olunur.***

Aeroportdan "Unikal"a verilən məlumata görə, 10-14 noyabr tarixlərində yalnız aviabileti olan sərnişinlər Terminal 1 və Terminal 2-yə daxil ola biləcəklər. Yola salan və qarşılayan şəxslərdən gözləmə zallarında sıxlıq yaranmasının qarşısını almaq üçün hava limanına gəlməmələri xahiş olunur.

Məlumata görə, hava limanının qarşısındakı dayanacaq zonası yalnız xüsusi təyinatlı nəqliyyat vasitələri üçün ayrılacaq. Bu səbəbdən 10-14 noyabr tarixlərində hava limanı ərazisində nəqliyyat vasitələrinin park edilməsinə icazə verilməyəcək və yalnız sərnişinlərin düşürülməsi mümkün olacaq. Avtomobillərini 10 noyabr tarixindən əvvəl uzunmüddətli park etməyi planlaşdıran sürücülərdən bu məhdudiyyətləri nəzərə almaları xahiş olunur, əks halda avtomobilləri ərazidən evakuasiya ediləcək.

Şəhər mərkəzindən hava limanına gələn sürücülərə Nizami küçəsi > Yusif Səfərov küçəsi > İzzət Orucova küçəsi > Fəzail Bayramov küçəsi > 8 Noyabr prospekti və Zığ şosesi marşrutunu izləmələri tövsiyə olunur. Bilgəh və Maştağa istiqamətindən gələnlər üçün Mərdəkan və Şüvələndan keçərək Zığ şosesinə çıxış məsləhət görülür.

COP29 müddətində (10-22 noyabr) H1 və H2 ekspres avtobusları sərnişinlərə hava limanına rahat çatmaq imkanı yaradacaq. H1 avtobusu 10 dəqiqəlik intervalla "28 May" metro stansiyası, H2 isə 15 dəqiqəlik intervalla "Əhmədli" metro stansiyası marşrutları üzrə fasiləsiz xidmət göstərəcək. Gediş haqqı ödənişsiz olacaq.

Sərnişinlərdən mümkün nəqliyyat məhdudiyyətlərini nəzərə alaraq, uçuşdan ən azı 3 saat əvvəl hava limanında olmaları və vaxt itkisini azaltmaq üçün onlayn qeydiyyatdan keçmələri xahiş olunur.

Qeyd edək ki, Heydər Əliyev Beynəlxalq Aeroportu, COP29 dövründə yüksək sərnişin axını zamanı fasiləsiz və keyfiyyətli xidmətin təmin olunması üçün gücləndirilmiş iş rejimində bütün zəruri tədbirləri görməkdədir.

# Ucarda əhaliyə göstərilən ödənişli xidmətlər

***2024-cü ilin yanvar-sentyabr aylarında əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri müqayisəli qiymətlərlə 2023-cü ilin eyni dövrünə nisbətən 4,8 faiz artaraq 33397,5 min manat təşkil etmiş və hüquqi şəxslər tərəfindən əhaliyə 8249,2 min manat, hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 25148,3 min manat xidmətlər göstərilmiş, bu da müvafiq olaraq xidmətlərin ümumi həcminin 24,7 və 75,3 faizini təşkil etmişdir.***

**Ucarda Tikinti**

İlkin məlumatlara əsasən 2024-cü ilin yanvar-sentyabr aylarında müəssisə və təşkilatlar tərəfindən rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün əsas kapitala bütün maliyyə mənbələrindən 2892,8 min manat və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 61,4 faiz az investisiya yönəldilmişdir.

Əsas kapitala yönəldilmiş investisiyanın 2683,3 min manatı və ya 92,8 faizi dövlət, 209,5 min manatı və ya 7,2 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür.

2024-cü ilin yanvar-sentyabr aylarında əsas kapitala yönəldilmiş investisiyanın 2880,0 min manatını və ya 99,6 faizini tikinti-quraşdırma işləri təşkil etmişdir.

*Ucar Rayon Statistika idarəsinin aparıcı məsləhətçisi Cəlil Vəliməmmədov*

# İki nəsil şəhid övladları arasında qurulan "Zəfər Körpüsü"...

***Bu günlərdə Rabitəbankın və Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı ilə həyata keçirilən "Zəfər Körpüsü" adlı tədbirdə iştirak etdim. 44 nəfər şəhid övladını əhatə edən layihənin məqsədi ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən şəhid övladlarına mənəvi dəstək göstərmək, onlara cəmiyyətin diqqət və qayğısını hiss etdirmək, motivasiyasını artırmaq, uğurlu kadr kimi inkişaf etmələrini stimullaşdırmaqdır.***




Eyni zamanda, əsas qayə Birinci Qarabağ Müharibəsi qəhrəmanlarının övladları ilə İkinci Qarabağ Müharibəsi qəhrəmanlarının övladlarını bir araya gətirmək, onlar arasında körpü yaratmaq, artıq öz karyerasında müəyyən uğurlara nail olmuş şəhid övladları ilə azyaşlı şəhid balaları arasında bir körpü qurulması idi. Tam səmimiyyətlə deyim ki, şəhid övladları ilə bağlı bu günə qədər iştirak etdiyim ən unikal, ən maraqlı və bir o qədər də təsirli bir tədbir oldu. Düzü 40-dan çox yaşım olsa da, azyaşlı şəhid övladı görəndə bu gün də təsirlənirəm, o ağır illəri xatırlayıram. Yəqin ki, ömrümün sonuna qədər də bu hislər davam edəcək.



Tədbirin rəsmi hissəsi bitəndən sonra komandalar yarandı, bizim komandada birinci Qarabağ şəhid övladlarından mən, Oruc İbrahimov, Şamil Verdizadə, bacısı Nigar xanım, ikinci Qarabağ savaşının qəhrəmanı Fəzail Əliyevin qızı Xöşü Əliyeva və Milli Qəhrəman Koroğlu Rəhimovun nəvələri bir araya gəldik. Komandamızın adının "Zəfərin Övladları" olmasını təklif edən kimi, komanda yoldaşlarım razılaşdı və xoş mübarizəyə başladıq. Çox maraqlı bir yarış oldu, zamanın necə keçdiyini anlamadım.

Tədbirin mühüm və mənim üçün çox dəyərli tərəflərindən biri də o oldu ki, Birinci Qarabağ Müharibəsinin qəhrəmanlarının övladları ilə tanış oldum. Biz hansı hislər keçirdiyimizi, nə hiss etdiyimizi bir-birimizə deməyə ehtiyac yoxdur, zatən bir-birimizin gözündə hər şeyi görürdük. Panel müzakirəsində çıxış edən şəhid övladı Ikram Səfərəliyev "Övladlar nəsə öyrənmək üçün atalarına sual verərlər, amma mənim sual verəcəyim şəxs yox idi" deyəndə bir anlıq göz-gözə gəldik. Onun tribunada, mənimsə öz masamda boğazımda nəyin düyünlənib qaldığını hiss elədim. Biz əlavə nəsə danışmadan da anlaşdıq...

Tədbir sonrası söhbətlərimiz zamanı kimin harada, nə işlə məşğul olduğunu biləndən sonra bir daha əmin oldum ki, o ağır illər, çətin həyat bizi o qədər möhkəmlədib ki, hər kəs öz cızdığı yolla müyyən məqamlara gəlib çatıb, özü üçün uğurlara imza atıb.







Əslində, tədbirin qayəsi bizləri azyaşlı şəhid balalarına nümunə göstərmək, onları ruhlandırmaq, öz həyatlarını, karyeralarını onların həyatını yaşamış şəhid övladlarına baxıb qurmaq idi. Məncə, alındı...

Bu gün bizim dövrdən fərqli olaraq, daha münbit şərait var. Dövlətimiz həm qalibdir, həm də iqtisadi cəhətdən daha güclüdür. İndi dövlət şəhid ailələrinə daha yaxşı sahib çıxa bilir. Təbii ki, heç kim, heç bir şey atanı əvəz edə bilməz, amma ümid edirəm və inanıram ki, bu gün bizimlə yanaşı dayanan 10-12 yaşlı şəhid balaları 10-15 il sonra çox yüksəklərdə olacaqlar. Mən heç vaxt atasızlığımı hiss etməmişəm, hər zaman onun yanımda olduğunu hiss etmişəm, ruhunun mənə yol göstərdiyi inancında olmuşam. Bu gün də belədir, sabah da belə olacaq. Çünki şəhidlər cismən olmasalar da, ruhən bu dünyada da, o tərəfdə də yaşayırlar və yaşadırlar...

*Zaur Əhməd*

39_27 IYUl-QARA.qxd 11/7/2024 10:31 PM Page 14



# 2024-cü ilin yanvar-sentyabr aylarında Ağdaş rayonunun makroiqtisadi göstəriciləri

***2024-cü ilin yanvar-sentyabr aylarında rayonda iqtisadiyyatın əsas sahələri üzrə 349 milyon 545,2 min manatlıq məhsul və xidmətlər istehsal olunmuşdur. Bu göstərici əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 7,5 faiz və ya 24 milyon 241,9 min manat çox, qiymət indeksi nəzərə alınmaqla isə 4,3 faiz və ya 14 milyon 4,9 min manat çoxdur.***

Müqayisə olunan dövrə nisbətən ümumi məhsul buraxılışı qiymət indeksi nəzərə alınmaqla tikinti-quraşdırma işləri sahəsində 3,3 dəfə və ya 20 milyon 494,6 min manat, nəqliyyat və anbar təsərrüfatı sahəsində 12,0 faiz və ya 559,1 min manat artmış, sənaye məhsulu istehsalı sahəsində 6,3 faiz və ya 4 milyon 151,7 min manat, ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində 1,7 faiz və ya 1 milyon 452,4 min manat, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 0,8 faiz və ya 1 milyon 286,2 min manat, informasiya və rabitə sahəsində isə 28,8 faiz və ya 158,5 min manat azalmışdır.

Ümumi məhsul buraxılışının 47,0 faizi kənd təsərrüfatı, 24,2 faizi ticarət xidməti və nəqliyyat vasitələrinin təmiri, 18,8 faizi sənaye, 8,4 faizi tikinti, 1,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 0,1 faizi isə informasiya və rabitə xidmətləri sahəsində yaranmışdır.

Məhsul və xidmətlərin 74,2 faizi istehsal sahələrinin, 25,8 faizi isə xidmət sahələrinin payına düşmüşdür.

**İstehsal və xidmət sahələri üzrə əsas göstəriciləri**

Məhsul və xidmətlərin 74,2 faizi istehsal sahələrinin, 25,8 faizi isə xidmət sahələrinin payına düşmüşdür.

Rayonun əsas istehsal sahəsi olan kənd təsərrüfatı müəssisələrində, fərdi sahibkar, ailə-kəndli və ev təsərrüfatlarında 164 milyon 204,6 min manatlıq məhsul istehsal olunmuşdur ki, onun da, 77 milyon 210,7 min manatı bitkiçiliyin, 86 milyon 993,9 min manatı isə heyvandarlığın payına düşmüşdür. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsulları istehsalı qiymət indeksi nəzərə alınmaqla 0,8 faiz azalmış, faktiki qiymətlərlə isə 2,8 faiz artmışdır.

Rayonun 14 sənaye müəssisəsi və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar, habelə ev təsərrüfatları tərəfindən 65 milyon 635,8 min manatlıq və ya əvvəlki ilin eyni dövrünə nisbətən faktiki qiymətlərlə 0,4 faiz, qiymət indeksi nəzərə alınmaqla isə 6,3 faiz az sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir. Bu dövrdə sənaye məhsulunun 89,9 faizi emal, 8,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,3 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur. İstehsal olunmuş sənaye məhsulunun 6 milyon 375,2 min manatı və ya 9,7 faizi dövlət, 59 milyon 260,6 min manatı və ya 90,3 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür. İstehsal olunmuş sənaye məhsulunun 58 milyon 703,4 min manatı və ya 89,4 faizi hüquqi şəxslərin, 6 milyon 135,0 min manatı və ya 9,4 faizi ev təsərrüfatlarının, 797,4 min manatı və ya 1,2 faizi isə fərdi sahibkarların payına düşmüşdür.

2024-cü ilin yanvar-sentyabr aylarında rayonda 29 milyon 496,5 min manatlıq tikinti-quraşdırma işləri yerinə yetirilmiş, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,3 dəfə çoxdur. Mərkəzləşdirilmiş qaydada istifadə edilən investisiya hesabına görülmüş tikinti-quraşdırma işləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 107,9 dəfə artmış, yerli imkanlar hesabına görülmüş tikinti-quraşdırma işləri isə 55,4 faiz azalmışdır. Tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsaitin 25 milyon 589,6 min manatı və ya 86,8 faizi dövlət, 3 milyon 906,9 min manatı və ya 13,2 faizi isə qeyri-dövlət mülkiyyətinin payına düşmüşdür.

Rayonda ticarət, nəqliyyat vasitələrinin təmiri, nəqliyyat və anbar təsərrüfatı və informasiya və rabitə sahələrində 90 milyon 208,3 min manatlıq xidmətlər istehsal olunmuşdur. Bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 0,5 faiz və ya 436,5 min manat, qiymət indeksi nəzərə alınmaqla isə 1,2 faiz və ya 1 milyon 51,8 min manat azdır. İstehsal olunmuş xidmətlərin 84 milyon 688,7 min manatı və ya 93,9 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində, 5 milyon 126,0 min manatı və ya 5,7 faizi nəqliyyat və anbar təsərrüfatı sahəsində, 393,6 min manatı və ya 0,4 faizi informasiya və rabitə sahəsində olmuşdur. Ticarət şəbəkələrində əhaliyə 264 milyon 652,3 min manatlıq istehlak malları satılmış və 2023-cü ilin eyni dövrü ilə müqayisədə rayonda 1,7 faiz və ya 4 milyon 563,7 min manat az istehlak malları realizə olunmuşdur.




*Arif Qurbanov,*
*Ağdaş Rayon Statistika İdarəsinin rəisi*

# Eyni rayonda daha bir yeni doğulan körpə öldü



**Zaqatalada yeni doğulan körpə ölüb.**

"Unikal" xəbər verir ki, bu barədə APA bildirib. Məlumata görə, bu gecə Zaqatala Rayon Mərkəzi Xəstəxanasının (RMX) doğum evində yeni doğulan körpə ölümü baş verib. Rayonun Yuxarı Tala kənd sakini Pərvana Şahid qızı İsgəndərova 04.11.2024-cü il tarixində qeysəriyyə yolu ilə körpə dünyaya gətirib. Yeni doğulan cinsi oğlan olan körpə bu gecə Zaqatala RMX-nın doğum şöbəsində dünyasını dəyişib.

Qeyd edək ki, bu faktla birlikdə yeni doğulan körpə ölümü noyabr ayı ərzində ikici hadisədi. Rayonun Yengiyan kənd sakini 2000-ci il təvəllüdlü Sahibə Sahib qızı Məmmədova doğuş üçün xəstəxanaya müraciət edib. Noyabrın 1-də baş tutan doğuş zamanı körpə ölüb.

Faktla bağlı Zaqatala rayon prokurorluğunda araşdırma aparılır.

Xatırladaq ki, bir neçə gün əvvəl Zaqatalada daha bir yeni doğulan körpə həyatını itirib.

# Yer təkindən istifadə üzrə hərrac elan edildi

***Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin təşkilatçılığı ilə yer təkindən istifadə üzrə növbəti hərrac elan edilir. Belə ki, 19 dekabr 2024-cü il, saat 11:00-da, Bakı şəhəri Əmlak Xidmətləri Məkanında hərrac keçiriləcək.***

"Unikal" xəbər verir ki, Xocalı rayonunun inzibati ərazisində yerləşən "Ağçay" üzlük daşı yatağı auskion formasında hərraca çıxarılacaq. Yatağın istismar müddəti 6 aydır. İştirak etmək istəyən fiziki və hüquqi şəxslər Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinə müraciət edə bilərlər. Ünvan: Bakı şəhəri, Səbail rayonu, İstiqlaliyyət küçəsi 31A. Xatırladaq ki, hərraca 5 iş günü qalmış sənəd qəbulu başa çatır.

# Qanunsuz saxlanılan silah-sursat aşkarlandı



***Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən qanunsuz saxlanılan odlu silah-sursatın aşkar olunaraq götürülməsi istiqamətində əməliyyat və profilaktik tədbirlər davam etdirilir.***

"Unikal" xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyi (DİN) məlumat yayıb.

Bildirilib ki, noyabrın 6-da polis əməkdaşları paytaxt və respublikanın ayrı-ayrı rayonlarında 2 avtomat silahı, 6 tüfəng, 1 patron darağı və 24 ədəd müxtəlif çaplı patron aşkar edərək götürüblər.

# Ucarda bələdiyyə büdcəsinin göstəriciləri

***2024-cü ilin yanvar-sentyabr aylarında bələdiyyə büdcəsinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6,0 faiz azalaraq 195,9 min manat təşkil etmişdir. Bu dövrdə büdcədən 225,2 min manat və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 10,7 faiz çox vəsait xərclənmişdir.***

Daxilolmaların 24,4 faizi torpaq vergisi, 18,3 faizi əmlak vergisi, 7,1 faizi bələdiyyə əmlakının özgəninkiləşdirilməsindən, 23,2 faizi bələdiyyə əmlakının icarəyə və istifadəyə verilməsindən, 26,3 faizi dövlət büdcəsindən verilən dotasiyadan, 0,2 faizi avtomobillərin dayanacaqları üçün ödənişlər, 0,5 faizi digər vergi olmayan daxilolmalar hesabına təmin edilmişdir.

*Ucar Rayon Statistika İdarəsinin*
*baş məsləhətçisi Emin Qəhrəmanov*

# Məhsul bazarının statistikası

***2024-cü ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət şəbəkələrindən əhaliyə 199927,8 min manatlıq və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 8,9 faiz çox istehlak malları satılmışdır.***

2024-cü ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət şəbəkəsindən əhaliyə satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının həcmi artaraq 103976,5 min manat, qeyri-ərzaq mallarının həcmi artaraq 95951,3 min manat olmuşdur.

*Ucar Rayon Statistika İdarəsinin rəis müavini*
*Şakir Qasımov*

39_27 IYUl-QARA.qxd 11/7/2024 10:31 PM Page 15



## "Qərb Gürcüstanda seçki prosesinə müdaxilə etdi" - Şoyqu



***Qərb ölkələri Gürcüstanda keçirilən seçki prosesinə təntənəli şəkildə müdaxilə etdilər, lakin buna nail ola bilmədilər.***

"Unikal" xəbər verir ki, bunu Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu MDB Təhlükəsizlik Şuraları katiblərinin Moskvada keçirilən iclasında çıxışı zamanı deyib.

"Gürcüstan ciddi güc sınaqlarından keçdi, biz hamımız Qərb ölkələrinin və qeyri-hökumət təşkilatlarının seçki prosesinə qeyri-təntənəli müdaxiləsinin şahidi olduq", - Şoyqu bildirib.

Onun sözlərinə görə, Avropa İttifaqı və ABŞ-nin siyasi sifarişlərini yerinə yetirən dağıdıcı qüvvələr bu dəfə uğursuzluğa düçar olublar.

*Gülayə Mecid*

## "Ermənistan bir sıra təkliflər irəli sürüb" - Mirzoyanın müavini

***Ermənistan Respublikası Azərbaycanla Konstitusiyaya dəyişikliklə bağlı müzakirə aparmır.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan xarici işlər nazirinin müavini Vahan Kostanyan bildirib.

O, davam edən sülh müqaviləsi danışıqlarına istinadən qeyd edib ki, hələ də həllini tapmayan məsələlər var: "Konstitusiya məsələsi sülh sazişinin tərkib hissəsi deyil. Demilitarizasiya ilə bağlı da heç bir müzakirə aparılmır. Ermənistan etimadın gücləndirilməsi mexanizmləri, o cümlədən əks nəzarətlə bağlı bir sıra təkliflər irəli sürüb. Hazırda danışıqlar düz gedir, lakin Cənubi Qafqazda həqiqətən sülh və sabitlikdə maraqlı olan və müsbət cavab verməyə çalışan tərəfdaşlar var".

*Ağarza Elçinoğlu*

## İtaliyanın ən güclü mafiyasına qarşı əməliyyat keçirildi

***İtaliyada polisin "Ndrangheta" mafiyasına qarşı keçirdiyi reyd nəticəsində 60-a yaxın adam həbs edilib.***

"Unikal" xəbər verir ki, bu barədə "Reuters" məlumat yayıb. Hüquq-mühafizə orqanlarının bildirdiyinə görə, həbslər İtaliyanın cənubundakı Kalabriya bölgəsində baş verib.

Polisin məlumatına görə, 50 nəfər həbs edilib, 9 nəfər isə ev dustaqlığına buraxılıb.

Müstəntiqlər narkotik ticarəti də daxil olmaqla, "Ndrangheta" ilə əlaqəli müxtəlif növ cinayət fəaliyyətlərini aşkar ediblər. Jurnalistlər İtaliyanın "Ndrangheta"sının ölkənin ən güclü mafioz təşkilatı olduğunu, fəaliyyətini bütün Avropa və bütün dünyaya yaydığını vurğulayıblar.

*Gülayə Mecid*

## "İran nəqliyyat kommunikasiyalarının açılmasının tərəfdarıdır" - Səfir

***Tehran regionda nəqliyyat kommunikasiyalarının açılmasının tərəfdarıdır, lakin Ermənistanın suverenliyini və ərazi bütövlüyünü nəzərə alır.***

"Unikal" xəbər verir ki, bu barədə İranın Ermənistandakı səfiri Mehdi Sobhani bildirib.

"İranla Ermənistan arasında münasibətlərin aydın əsası var və bizim çox yaxşı münasibətlərimiz var. Və heç kimin hər iki ölkə xalqının mənafeyinə zidd addım atacağını düşünmürəm", - deyə o qeyd edib.

*Ağarza Elçinoğlu*

## MDB ölkələrinin hərbi əməkdaşlıq konsepsiyası layihəsi hazırlanır

***Müstəqil Dövlətlər Birliyi ölkələrinin hərbi əməkdaşlıq konsepsiyası layihəsi hazırlanır.***

APA-nın Moskva müxbiri xəbər verir ki, bu barədə MDB-nin Baş katibi Sergey Lebedev bildirib.

Onun sözlərinə görə, MDB ölkələri 2030-cu ilə qədər hərbi əməkdaşlıq konsepsiyasının layihəsini hazırlamağa başlayıblar.

Lebedev qeyd edib ki, Birlik ölkələrinin hərbi əməkdaşlıq konsepsiyası layihəsini hazırlamağa başlamaları dünyada vəziyyətin pisləşməsi ilə əlaqədardır.

# "ABŞ Ermənistanı milli intihara sövq edir" - Rusiya kəşfiyyatı

***ABŞ Dövlət Departamenti Ermənistanda qərbyönlü vətəndaş cəmiyyəti strukturlarının təşviqi üzrə işləri nəzərəçarpacaq dərəcədə sürətləndirib.***



"Unikal" xəbər verir ki, bu barədə Rusiya Xarici Kəşfiyyat Xidməti məlumat yayıb.

Məlumata görə, ABŞ Ukrayna və Moldovada sınaqdan keçirilmiş sxemləri rəhbər tutaraq, Ermənistanı inkişafın qərb istiqamətinə yönəltmək istəyir: "Erməni xalqı Birləşmiş Ştatların başçılıq etdiyi qondarma sivil icmaya qoşulmaq kimi "yüksək məqsəd"ə nail olmaq üçün Vaşinqtonda düşünüldüyü kimi, öz adət-ənənələrindən və milli sosial əsaslarından imtina etməklə bunun əvəzini ödəməli olacaq. Beləliklə, Vaşinqton israrla Ermənistanı milli intihara sövq edir".

*Ağarza Elçinoğlu*

# "Tramp Ukraynadakı münaqişəyə son qoymağı planlaşdırır" - KİV

***ABŞ prezident seçkilərində qələbə qazanan Donald Trampın ətrafı Ukraynanın Şimali Atlantika Alyansına müvəqqəti qoşulmamaq vədi müqabilində Ukrayna münaqişəsini dondurmağı və yeni silah tədarükünü təklif edib.***

"Unikal" xəbər verir ki, bu barədə "The Wall Street Journal" mənbələrə istinadən məlumat yayıb.

"Trampın keçid ofisi tərəfindən təklif edilən variantlardan biri Kiyevin ən azı 20 il NATO-ya üzv olmamaq vədini ehtiva edəcək ki, bunun müqabilində ABŞ Ukraynaya silah verməyə davam edəcək".

Lakin materialda zonanın təhlükəsizliyini kimin qoruyacağı barədə məlumat verilmir. Trampın komandasının adı açıqlanmayan üzvü əlavə edib ki, Vaşinqton hərbi təlimlər və digər dəstək formaları verməyə hazırdır, lakin sülhməramlı əməliyyatların əsas hissəsi Avropada olacaq.



*Gülayə Mecid*

# Bayden Ukrayna üçün son hərbi paketi hazırlayır

***ABŞ prezidenti Co Baydenin administrasiyası prezident seçkilərinin qalibi Donald Trampın vəzifəyə başlamasından sonra Kiyevə dəstəyin geri çəkiləcəyi qorxusu səbəbindən Ukraynaya təcili olaraq 6 milyard dollardan çox dəyərində son hərbi yardım paketini göndərməyi planlaşdırır.***



"Unikal" xəbər verir ki, bu barədə Amerikanın "Politico" nəşri mənbələrə istinadən məlumat yayıb.

Bu məbləğə ABŞ-nin mövcud ehtiyatlarından silah alınması üçün nəzərdə tutulan 4,3 milyard dollar və ölkənin müdafiə şirkətləri ilə bağlanmış müqavilələr üzrə təchizat üçün nəzərdə tutulan 2,1 milyard dollar daxildir.

Nəşr vurğulayır ki, silahların tədarükü prosesi adətən bir neçə ay çəkir. Beləliklə, Bayden administrasiyası tezliklə yeni yardım elan etsə belə, çox güman ki, Tramp Ağ Evə qayıdana qədər Kiyevə tam çatdırılmayacaq.

*Gülayə Mecid*

# Rusiya Kiyevi İran PUA-ları ilə vurdu

***Rusiya Kiyevə yenidən İranın "Şahed" PUA-ları ilə hücum edib.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna KİV məlumat yayıb. Kiyev Şəhər Hərbi Administrasiyasının məlumatına görə, Rusiyanın pilotsuz təyyarəsinin Kiyevə hücumu nəticəsində paytaxtın beş rayonunda dağıntılar qeydə alınıb, hündürmərtəbəli binada və xəstəxanada yanğınlar baş verib, itkilər olub.

Belə ki, Qoloseyevski rayonunda yaşayış binasındakı mənzilə ziyan dəyib, bir nəfər həkimə müraciət edib. Ümumi sahəsi 200 kvadratmetr olan qarajlarda və yaxınlıqdakı texniki xidmət stansiyasında da yanğın baş verib.

Peçersk vilayətində dağıntıların düşməsi nəticəsində yaşayış binasının 33-cü mərtəbəsindəki restoranda 50 kvadratmetr sahədə yanğın baş verib, 34-cü texniki mərtəbənin tikinti konstruksiyaları qismən dağılıb.

Solomenski rayonunda müəssisənin ərazisində 600 kvadratmetr sahədə anbar binasında yanğın baş verib. Kiyev meri Vitali Kliçkonun sözlərinə görə, bir qurban xəstəxanaya yerləşdirilib. Bundan başqa, tibb məntəqəsinin ərazisinə dağıntılar düşüb. Zərərçəkənlərlə bağlı məlumatlar dəqiqləşdirilir.



Bundan əlavə, Obolonski rayonunda 6 mərtəbəli biznes mərkəzi binasının damında 10 kvadratmetr sahədə yanğın olub.

Paytaxtın Podolsk rayonunda da dağıntıların düşməsi qeydə alınıb, yaşayış binasında yanğın baş verib.

*Ağarza Elçinoğlu*

39_27 IYUI-QARA.qxd 11/7/2024 10:31 PM Page 16



# UEFA "Zirə"nin legionerini cəzalandırdı

***UEFA "Zirə"nin futbolçusu Salifu Sumaya 3 oyun cəza verib.***

"Unikal" xəbər verir ki, buna qvineyalı hücumçunun Avropa Liqasının I təsnifat mərhələsində Bakıda Moldovanın "Şerif" klubuna 1:2 hesabı ilə uduzduqları cavab matçındakı davranışı səbəb olub.

Görüşün 40-cı dəqiqəsində rəqib futbolçunun sifətinə əllə zərbə endirən 21 yaşlı forvard birbaşa qırmızı vərəqə ilə meydandan qovulub. Nəticədə UEFA Sumanı diskvalifikasiya edib.




Qeyd edək ki, "Zirə" Moldovadakı ilk matçda minimal hesablı qələbə qazanıb. Bakıdakı görüşdə ümumi hesab (2:2) bərabər olduğu üçün qalib penaltilər seriyasında müəyyənləşib. On bir metrlik cərimə zərbələrini daha dəqiq (5:4) yerinə yetirən "Şerif" II raunda vəsiqə qazanıb. Azərbaycan təmsilçisi isə mübarizəni UEFA Konfrans Liqasında davam etdirib. Lakin pley-off oyunlarında Kiprin "Omoniya" klubuna uduzan "qartallar" qrup mərhələsinin bir addımlığında avrokuboklarla vidalaşıb.

# "Barselona" 97 illik rekordunu təkrarladı

***İspaniyanın "Barselona" klubu unikal göstəriciyə imza atıb.***

"Unikal" xəbər verir ki, Kataloniya təmsilçisinin heç-heçəsiz rəsmi oyunlar seriyası 30-a çatıb.



Komanda buna UEFA Çempionlar Liqasının əsas mərhələsinin IV turunda Serbiyada "Srvena Zvezda"nı 5:2 hesabı ilə məğlub etməklə nail olub.

"Barselona" son 30 rəsmi qarşılaşmada rəqiblərinə ya qalib gəlib, ya da uduzub. Bu matçların heç birində bərabərlik qeydə alınmayıb.

Bununla da klub 97 ildən sonra ilk dəfə həmin göstəricini təkrarlayıb.

# Şahmatçılarımız Avropa çempionatında iştirak edəcəklər

***Noyabrın 8-də Monteneqronun Petrovaç şəhərində şahmat üzrə şəxsi Avropa çempionatına start veriləcək.***

Azərbaycan qitə çempionatında 22 şahmatçı ilə təmsil olunacaq.

Avropa çempionatında Rauf Məmmədov, Eltac Səfərli, Aydın Süleymanlı, Məhəmməd Muradlı, Vüqar Rəsulov, Vasif Durarbəyli, Əhməd Əhmədzadə, Misrətdin İsgəndərov, Riad Səmədov, Namiq Quliyev, Xəzər Babazadə, Vüqar Manafov, Xaqan Əhməd, Gövhər Beydullayeva, Ayan Allahverdiyeva, Şiroğlan Talıbov, Orxan Abdulov, Allahverdi Həmidov, Şahin Vəliyev, Ümid Aslanov, Elcan Əbdülkərimli, Orxan Bağırov və Kamran Vəlizadə mübarizə aparacaq.

Qeyd edək ki, noyabrın 19-da yekunlaşacaq Avropa çempionatında ümumilikdə 42 ölkə təmsil olunur.



# Murad Musayev ardıcıl 2-ci dəfə ən yaxşı məşqçi seçildi

***"Sabah"ın sabiq baş məşqçisi, hazırda "Krasnodar"ı çalışdıran Murad Musayev Rusiya Premyer Liqasında növbəti mükafatı qazanıb.***

QOL.az turnirin rəsmi saytına istinadən xəbər verir ki, o, ardıcıl ikinci aydır ki, bütün həmkarlarını qabaqlayaraq ayın ən yaxşı məşqçisi seçilib. Murad Musayev Sergey Semak ("Zenit"), Martsel Liçka ("Dinamo"), Marko Nikoliç (SSKA) və Dmitri Pyatibratovu ("Fakel") üstələyib.



"Krasnodar" oktyabrda Rusiya Premyer Liqasında üç qələbə qazanıb. Komanda "Ximki"ni 4:0, "Spartak"ı 3:0, "Krılya Sovetov"u 2:1 hesabı ilə məğlub edib.

14 oyunda 36 xal toplayan "Krasnodar" hazırda Rusiya Premyer Liqasında liderdir.

Qeyd edək ki, Musayev 2021-ci ilin oktyabrından bu ilin fevral ayınadək "Sabah"ı çalışdırıb.

# Çempionlar Liqasında həftənin oyunçusu adına namizədlər

***UEFA Çempionlar Liqasında Liqa mərhələsinin IV turunun matçlarından sonra həftənin ən yaxşı oyunçusu adına namizədlər açıqlanıb.***

"Unikal" UEFA-nın rəsmi saytına istinadən xəbər verir ki, bu ada 4 futbolçu namizəddir. Bunlar İngiltərə "Liverpul"undan Luis Dias, Avstriya "Zaltsburq"undan Kərim Konate, Portuqaliya "Sportinq"indən Viktor Dyökereş və Şotlandiya "Seltik"indən Nikolas Herrit-Kündür.

Qeyd edək ki, qalib UEFA-nın rəsmi saytında səsvermə yolu ilə müəyyənləşəcək.




# Mbappe Ançelottidən narazıdır

***"Real"ın hücumçusu Kilian Mbappe meydandakı mövqeyindən narazıdır.***

QOL.az xəbər verir ki, bu barədə sport.es məlumat yayıb. Fransalı forvard hücumun mərkəzində oynamağı sevmir. O, hücumun cinahlarında istifadə olunsa, daha faydalı olacağına əmindir.

Mbappe komandası üçün kifayət qədər qol vura bilməməsinin səbəbini bunda görür. O, baş məşqçi Karlo Ançelottidən narazıdır.

Digər tərəfən futbolçunun meydanda qeyri-aktivliyi Karlo Ançelottinin və ümumilikdə klubun üzərində təzyiqi daha da artırır.

Xatırladaq ki, Mbappe bu yay Madrid klubuna keçib. Fransalı futbolçu cari mövsümdə 15 oyunda 8 qol vurub, 2 qolun ötürməsini verib.

# AFFA hakimi təhqir edən baş məşqçiyə bu cəzanı verdi



***AFFA "Ağdaş"ın baş məşqçisi Ruslan Hüseynovu sərt cəzalandırıb.***

İntizam Komitəsinin bugünkü iclasında mütəxəssislə bağlı qərar qəbul edilib.

R.Hüseynov 2-ci Liqanın 9-cu turunda "Füzuli" ilə oyunun 43-cü dəqiqəsində hakimi təhqir edib. O, birbaşa qırmızı vərəqə alıb.

İntizam Komitəsi isə baş məşqçini bu hərəkətinə görə 5 oyunluq cəzalandırıb. "Ağdaş" isə 400 manat cərimə edilib.

Qeyd edək ki, sözügedən görüşdə "Ağdaş" 2:1 hesablı qələbə qazanıb.

# Fatih Tekkeni kim əvəzləyir?

***Türkiyənin "Kasımpaşa" klubu baş məşqçisi Sami Uğurlu ilə yollarını ayırıb.***



QOL.az xəbər verir ki, bu barədə Superliqa təmsilçisinin rəsmi saytı məlumat yayıb. Mütəxəssislə müqaviləyə qarşılıqlı razılaşma əsasında xitam verilib.

Artıq onun yeni ünvanı da bəllidir. 46 yaşlı mütəxəssis "Alanyaspor"u çalışdıracaq. "Milliyət"in məlumatına görə, bir neçə gün əvvəl Fatih Tekke ilə yolları ayıran Alanya təmsilçisi Sami Uğurlu ilə razılığa gəlib.

Qeyd edək ki, Sami Uğurlunun çalışdırdığı "Kasımpaşa" Superliqanın son turunda "Beşiktaş"ı səfərdə 3:1 hesabı ilə məğlub etmişdi. Hazırda "kasımpaşa" 14 xalla 9-cu, "Alanyaspor" isə 10 xalla 15-ci pillədə qərarlaşıb.

# AFFA "Araz-Naxçıvan"ı cərimələdi

***AFFA "Araz-Naxçıvan" klubunu 700 manat cərimələyib.***

"Unikal" xəbər verir ki, bu barədə İntizam Komitəsinin iclasında qərar qəbul olunub.

Cəriməyə Misli Premyer Liqasının III turundan təxirə salınan "Zirə" - "Araz-Naxçıvan" oyununda komandanın 6 futbolçusunun sarı vərəqə ilə cəzalandırılması səbəb olub.